QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 141 (5372) 9 **avqust** 2017-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# İlham Əliyev: “Türkmənistan bizim üçün yaxın, dost, qardaş ölkədir, türkmən xalqı bizim qardaş xalqımızdır”

Səh 2



6

**Müdafiə Nazirliyi: düşmənin təxribat qrupunun bir üzvü sərrast atəşlə məhv edilib**



6

**Baş Prokurorluq: Ermənistanın təxribatçı əməlləri ilə bağlı cinayət işi başlanıb**



7

**Zirehli döyüş avtomobillərinin təmiri və texniki xidmət mərkəzinin açılışı olub**



# İlham Əliyev: “Türkmənistan bizim üçün yaxın, dost, qardaş ölkədir, türkmən xalqı bizim qardaş xalqımızdır”

***Azərbaycan Respublikasına rəsmi səfərə gələn Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun avqustun 8-də rəsmi qarşılanma mərasimi olub. AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Türkmənistan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi.***





Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovu qarşıladı. Türkmənistanın və Azərbaycanın dövlət himnləri səsləndi. Prezident İlham Əliyev və Prezident Qurbanqulu Berdiməhəmmədov fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Türkmənistan Prezidenti Azərbaycan əsgərlərini salamladı. Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Qurbanqulu Berdiməhəmmədova, Türkmənistan nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu. Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi. Azərbaycan və Türkmənistan prezidentləri rəsmi foto çəkdirdilər.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun təkbətək görüşü olub. AZƏRTAC xəbər verir ki, dövlət başçıları görüşdə çıxış etdilər.

**Azərbaycan Prezidenti İlham Əliyev:**

-Hörmətli Qurbanqulu Məlikquluyeviç.

Azərbaycana xoş gəlmisiniz. Sizi səmimiyyətlə salamlayıram. Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, səfəriniz Türkmənistan-Azərbaycan dostluq, qardaşlıq əlaqələrinin inkişafında çox mühüm addım olacaq. Bizim xalqlarımızı tarix birləşdirir. Biz əsrlər boyu bir yerdə yaşamışıq, dostluq etmişik, qardaşlıq şəraitində yaşamışıq. Bu gün isə iki müstəqil dövlət kimi uğurla inkişaf edirik. Sizin səfəriniz bizim əlaqələrimizə yeni dinamika gətirəcək. Biz bir sıra sahələrdə çox uğurlu əməkdaşlıq edirik və bu əməkdaşlıq dərinləşəcək. Siyasi, iqtisadi, humanitar, mədəniyyət, nəqliyyat və digər sahələrdə inkişaf və əməkdaşlıq üçün çox yaxşı imkanlar var. Sizi bir daha səmimiyyətlə salamlayıram, “Xoş gəlmisiniz” deyirəm. Əminəm ki, səfəriniz çox uğurlu olacaq.

x x x

**Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov:**

-Əziz qardaşım, icazə verin, Azərbaycana səfərə dəvət olunduğumuza görə bizim bütün nümayəndə heyəti adından Sizə minnətdarlığımı bildirim.

Bu səfər böyük əhəmiyyət kəsb edir. Siyasətin ən mühüm postulatlarından biri qonşularla yaxşı münasibətləri saxlamaqdır. Bu münasibətlər müxtəlif istiqamətlər üzrə çoxtərəfli əməkdaşlığın və qarşılıqlı fəaliyyətin necə reallaşdırılmasından asılıdır. Müasir dövrdə Türkmənistan-Azərbaycan münasibətləri özünün yeni mərhələsini yaşayır, yeni məzmun kəsb edir. Bu, həm siyasətdə, həm iqtisadiyyatda, həm də mədəni-humanitar sahədə müşahidə olunur. Xüsusi qeyd etmək lazımdır ki, həm Türkmənistan, həm də Azərbaycan dünyada təhlükəsizlik, firavanlıq, sabitlik və inkişaf üçün hər şeyi edir. Bizim ölkələrimiz bu siyasəti həyata keçirmək üçün Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarda qarşılıqlı fəaliyyət göstərir, bir-birini dəstəkləyirlər.

***Ardı Səh. 3***

# İlham Əliyev: “Türkmənistan bizim üçün yaxın, dost, qardaş ölkədir, türkmən xalqı bizim qardaş xalqımızdır”



Əvvəli Səh. 2

Biz Sizə minnətdarıq ki, Siz Türkmənistanın neytral statusa əsaslanan siyasətini həmişə dəstəkləyirsiniz. Ticari-iqtisadi münasibətlərə gəldikdə, bu gün həm Türkmənistan, həm də Azərbaycan energetika, nəqliyyat və digər sahələrdə iri layihələri reallaşdırmaqla nəinki regionda, həm də dünya miqyasında xüsusi yer tutur. Bu, təkcə iki ölkənin, yalnız regionun inkişafına töhfə verməklə məhdudlaşmır, ölkələrimizin reallaşdırdığı layihələr böyük əhəmiyyət kəsb edir və dünyada da müəyyən rol oynayır.

Mədəni-humanitar sahəyə gəldikdə, Siz düzgün olaraq qeyd etdiniz ki, bizim dillərimizin, tariximizin, mənəvi dəyərlərimizin kökləri əsrlərin dərinliklərindən başlanır, onlar bir-birinə yaxın və oxşardır. Bütün bunları qoruyub saxlamaq və növbəti nəsillərə çatdırmaq mühüm məqamdır.

Əziz qardaşım, hörmətli cənab Prezident, mən Sizə dövləti fəaliyyətinizdə, Türkmənistan-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə, Azərbaycanın firavanlaşmasına yönəlmiş fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

Fürsətdən istifadə edib, Sizi Aşqabadda keçiriləcək qapalı məkanlarda döyüş sənəti üzrə V Asiya Oyunlarının təntənəli açılış mərasimində iştiraka dəvət edirəm. Açılış sentyabrın 17-də olacaq. Sizi və Sizin nümayəndə heyətinin üzvlərini böyük ehtiramla dəvət edirəm.

Qardaş Azərbaycan xalqına inkişafda böyük uğurlar və firavanlıq arzu edirəm. Gözəl ölkənizə səfərə dəvət olunduğumuza görə Sizə bir daha dərin minnətdarlığımı bildirirəm.



Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub. AZƏRTAC xəbər verir ki, prezidentlər görüşdə çıxış etdilər.

**Azərbaycan Prezidenti İlham Əliyev:**

-Hörmətli Qurbanqulu Məlikquluyeviç.

Hörmətli qonaqlar.

Mən sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz. Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, səfər Türkmənistan-Azərbaycan əlaqələrinin inkişafında mühüm rol oynayacaq. Biz dostuq, qonşuyuq, əsrlər boyu xalqlarımız dostluq, mehriban qonşuluq şəraitində yaşamışlar və bu gün iki müstəqil dövlət kimi biz əməkdaşlığımızı yeni səviyyəyə qaldırmışıq.

Biz bütün sahələrdə uğurlu əməkdaşlıq edirik, siyasi, iqtisadi, nəqliyyat, energetika və digər sahələrdə çox yaxşı nəticələr var. Bu gün təkbətək görüşdə müzakirə etdiyimiz məsələlər bir daha onu göstərir ki, bizim mövqeyimizdə eyni yanaşma var. Biz istəyirik ki, Türkmənistan ilə Azərbaycan həmişə olduğu kimi öz əlaqələrini yüksək səviyyədə saxlasınlar, bu əlaqələr daha da inkişaf etsin. Biz istəyirik ki, bölgədə sabitlik, sülh daim bərqərar olsun. İstəyirik ki, xalqlarımız yaxşı yaşasın, rifah içində yaşasın. Əlbəttə ki, ikitərəfli əlaqələrimizin inkişafı xalqlarımızın maraqlarına tam cavab verir və həm beynəlxalq arenada, həm regionda, həm ikitərəfli formatda Türkmənistan və Azərbaycan nümunəvi münasibətlər göstərir. Sizin bugünkü səfəriniz bunun növbəti təsdiqidir.

Mən Sizi bir daha səmimiyyətlə Azərbaycanda salamlayıram, bir daha “Xoş gəlmisiniz” deyirəm. Əminliyimi ifadə etmək istəyirəm ki, səfər çox uğurlu olacaq və əlaqələrimiz daha da yüksək səviyyəyə qalxacaqdır. Bir daha xoş gəlmisiniz.

x x x

**Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov:**

-Hörmətli İlham Heydəroğlu, çox sağ olun.

Əvvəlcə Sizə dərin təşəkkürümü bildirmək istərdim. Siz Azərbaycana rəsmi səfərin həyata keçirilməsi üçün məni ölkənizə dəvət etdiniz. Mən öz adımdan və nümayəndə heyətimizin adından Sizə dərin təşəkkürümü bildirirəm. Mənə göstərilmiş səmimi qəbula görə xüsusi təşəkkürümü bildirirəm. Siz qeyd etdiyiniz kimi, biz qonşu dövlətlərik. Mənə göstərilmiş qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirirəm. Burada səmərəli birgə iş üçün çox gözəl şərait yaradılmışdır.

İlk növbədə qeyd etmək istərdim ki, rəsmi səfərin əsas məqsədi dövlətlərimiz və xalqlarımız arasında mövcud olan qardaşlıq münasibətlərinin daha da gücləndirilməsinə yönəlib. Bu gün əlaqələrimizin və əməkdaşlığımızın iqtisadiyyat, ticarət və humanitar sahələrdə inkişaf etdirilməsi üçün geniş imkanlar mövcuddur. Siyasi istiqamətə gəldikdə, bildirmək istərdim ki, dövlətlərimiz əsasən məhz beynəlxalq və regional təhlükəsizliyin qorunub saxlanılmasının tərəfdarıdır. Biz arzu edirik ki, ölkələrimizin sabit inkişafı davam etsin.

Ardı Səh. 4

# İlham Əliyev: "Türkmənistan bizim üçün yaxın, dost, qardaş ölkədir, türkmən xalqı bizim qardaş xalqımızdır"

Əvvəli Səh. 3



Bu, öz növbəsində Mərkəzi Asiyada və Xəzər dənizi hövzəsi regionunda siyasi proseslərin cərəyan etməsinə müsbət təsir göstərən bir amildir. Hazırkı şəraitdə ölkələrimiz nüfuzlu beynəlxalq təşkilatlar - BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, MDB, İqtisadi Əməkdaşlıq Təşkilatı və digər təşkilatlar çərçivəsində əməkdaşlığı gücləndirməlidirlər.

x x x

Söhbət zamanı dost, qardaş, qonşu dövlətlərimiz arasında əməkdaşlıq əlaqələrinin bütün sahələrdə daha da inkişaf etdirilməsi, genişləndirilməsi və möhkəmləndirilməsi ətrafında fikir mübadiləsi aparıldı. Siyasi, iqtisadi, energetika, nəqliyyat, mədəniyyət, təhsil və digər sahələrdə əməkdaşlığın inkişafı üçün böyük potensialın olduğu vurğulandı, bu istiqamətdə imzalanacaq sənədlərin əhəmiyyəti qeyd edildi.

Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədovun iştirakı ilə Azərbaycan-Türkmənistan sənədlərinin imzalanması mərasimi olub. AZƏRTAC xəbər verir ki, "Azərbaycan Respublikası ilə Türkmənistan arasında Strateji tərəfdaşlıq haqqında Bəyannamə"ni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədov imzaladılar. "Bakı (Azərbaycan Respublikası) və Türkmənbaşı (Türkmənistan) limanları vasitəsilə beynəlxalq birbaşa dəmir yolu-bərə əlaqələrində yüklərin daşınmasının təşkili, yük vaqonlarının və konteynerlərin istismarı, nömrələr üzrə uçotu və onlardan istifadəyə görə hesablaşmalar haqqında Saziş"ə əlavə və dəyişikliklər edilməsi barədə Protokolu "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov və Türkmənistanın dəmir yolları naziri Deryaqulı Bəşimov imzaladılar.

"Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə Türkmənistanın Maliyyə Nazirliyi arasında vergi orqanlarının fəaliyyəti sahəsində əməkdaşlığa dair Memorandum"u Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Türkmənistanın maliyyə naziri Qoçmırat Mıradov imzaladılar.

"Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Türkmənistanın Turizm üzrə Dövlət Komitəsi arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Türkmənistanın Turizm üzrə Dövlət Komitəsinin sədri Serdar Çolukov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında dəniz ticarət gəmiçiliyi sahəsində əməkdaşlıq haqqında Saziş"i "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev və Türkmənistanın Dövlət Dəniz və Çay Nəqliyyatı Xidmətinin sədri Amanmırat Qurdov imzaladılar.

"Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Türkmənistanın Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın daxili işlər naziri Ramil Usubov və Türkmənistanın daxili işlər naziri İsgender Mulikov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş"i və "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında bitki karantini sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın kənd təsərrüfatı naziri Heydər Əsədov və Türkmənistanın kənd və su təsərrüfatı naziri Nursaxet Sapardurdıyev imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında müəlliflik hüququ və əlaqəli hüquqların qorunması sahəsində əməkdaşlıq haqqında Saziş"i və "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Türkmənistanın iqtisadiyyat və inkişaf naziri Batır Bazarov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında mülki müdafiə, fövqəladə halların qarşısının alınması və aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın fövqəladə hallar naziri Kəmaləddin Heydərov və Türkmənistanın müdafiə nazirinin müavini, Fövqəladə Hallar İdarəsinin rəisi Yusup Muxammetqulıyev imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Türkmənistanın Ətraf Mühit və Torpaq Ehtiyatları üzrə Dövlət Komitəsinin sədri Batırmırat Orazmıradov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Türkmənistanın mədəniyyət nazirinin vəzifəsini müvəqqəti icra edən Ataqeldı Şamıradov imzaladılar. "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında energetika sahəsində əməkdaşlığın gələcək inkişafı haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Türkmənistan Nazirlər Kabinetinin sədr müavini Maksad Babayev imzaladılar.

Avqustun 8-də Azərbaycan-Türkmənistan sənədlərinin imzalanması mərasimindən sonra Prezident İlham Əliyev və Prezident Qurbanqulu Berdiməhəmmədov mətbuata bəyanatlarla çıxış etdilər.

**Prezident İlham Əliyevin bəyanatı**

-Hörmətli Qurbanqulu Məlikquluyeviç.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Hörmətli cənab Prezident, mən Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram. Ölkəmizə "Xoş gəlmisiniz" deyirəm.

Sizin səfəriniz Türkmənistan-Azərbaycan əlaqələrinin inkişafında çox mühüm yer tutur. Bu gün apardığımız danışıqlar və imzalanmış sənədlər bir daha onu göstərir ki, Türkmənistan-Azərbaycan əlaqələri ən yüksək səviyyədədir. Bu əlaqələrin təməlində xalqlarımızın birliyi, dostluğu, qardaşlığı dayanır. Əsrlər boyu türkmən və Azərbaycan xalqları bir yerdə yaşamışlar, əməkdaşlıq, dostluq etmişlər. Dövlətlərarası münasibətlər bu möhkəm təməl üzərində qurulub. Bu il biz diplomatik münasibətlərin yaradılmasının 25-ci ildönümünü qeyd edirik. Bu 25 il ərzində Azərbaycan və Türkmənistan böyük və uğurlu yol keçmişdir.

Cənab Prezident, mən bu gün xüsusilə Sizin rəhbərliyinizlə Türkmənistanın əldə etdiyi uğurlar haqqında danışmaq istərdim. Sizin rəhbərliyinizlə ölkəniz sürətlə inkişaf edir, sosial, iqtisadi məsələlər uğurla həll olunur, vətəndaşların rifah halı yaxşılaşır, Türkmənistan beynəlxalq aləmdə böyük rol oynayır. Sizin neytrallıq siyasətiniz dünya ictimaiyyəti tərəfindən dəstəklənir və Birləşmiş Millətlər Təşkilatı Türkmənistanın neytrallığı ilə bağlı iki il əvvəl qətnamə qəbul etmişdir. Azərbaycan da o qətnamənin həmmüəllifi olmuşdur.

Bu gün imzalanan sənədlər arasında Birgə Bəyannamə xüsusi yer tutur. Bu, strateji tərəfdaşlıq haqqında imzalanan Bəyannamədir. Yəni, bu, əlaqələrin ən yüksək səviyyəsidir. Bu gün Türkmənistan və Azərbaycan artıq strateji tərəfdaşlardır. Bu Bəyannamədə gələcək birgə fəaliyyətimizin demək olar ki, bütün istiqamətləri müəyyən edilib, həm siyasi, həm iqtisadi, humanitar, mədəniyyət, nəqliyyat, energetika, təhlükəsizlik məsələləri öz əksini tapıb. Bəyannamədə hər iki tərəf bir-birinin ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərin toxunulmazlığına qətiyyətli dəstək nümayiş etdirmişdir.

Bizim əlaqələrimiz uğurla inkişaf edir. Biz bir çox istiqamətlər üzrə fəaliyyətimizi gücləndirəcəyik. Bu gün beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edirik - BMT-də, ATƏT-də, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində bir-birimizi dəstəkləyirik. Ticarət sahəsində, iqtisadi sahədə yaxşı nailiyyətlər var. Keçən il ticarət dövriyyəmiz artıb.

Bu gün danışıqların böyük hissəsi nəqliyyat məsələlərinə həsr edilib. Həm Türkmənistanda, həm Azərbaycanda yeni dəniz ticarət limanları tikilir və yaxın zamanlarda istifadəyə veriləcək. Bu, yük daşımalarının həcminin artırılmasına gətirib çıxaracaq. Eyni zamanda, bu gün müzakirə edilən mövzulardan biri də Bakı-Tbilisi-Qars dəmir yolunun inşasıdır. Bu yol həm Türkmənistanın, həm Azərbaycanın tranzit imkanlarını böyük dərəcədə artıracaq.

Ardı Səh. 5

# İlham Əliyev: "Türkmənistan bizim üçün yaxın, dost, qardaş ölkədir, türkmən xalqı bizim qardaş xalqımızdır"

Əvvəli Səh. 4

Energetika sahəsində əməkdaşlıq üçün yaxşı imkanlar var. Bu gün imzalanan Memorandum gələcək fəaliyyətimiz üçün yaxşı əsas yaradır. Biz bütün sahələrdə, təbii ki, humanitar sahədə uğurla əməkdaşlıq edirik. İctimaiyyət onu da görür ki, bizim üçün tərcüməçi də lazım deyil. Biz cənab Prezidentlə söhbət əsnasında dedik ki, əgər bizim vətəndaşlar bir ay bir-birinə qonaq getsələr onda heç, ümumiyyətlə, tanış olmayan kəlmə də qalmaz. Yəni, bu oxşarlıq bizim böyük sərvətimizdir. Tarix, mədəniyyət, etnik köklər birdir və biz fəaliyyətimizi bu möhkəm təməl üzərində qururuq.

Türkmənistan bizim üçün yaxın, dost, qardaş ölkədir, türkmən xalqı bizim qardaş xalqımızdır. Biz bunu yüksək qiymətləndiririk. Mən xüsusilə Prezident Berdiməhəmmədovun fəaliyyətini bir daha qeyd etmək istərdim. Çünki bizim uğurlu əməkdaşlığımızın tarixi hadisəsi 2008-ci ildə baş vermişdir. Həmin ilin may ayında ilk dəfə olaraq Türkmənistan Prezidenti Azərbaycana səfər etmişdir və ondan bir neçə ay sonra - 2008-ci ilin noyabr ayında mən Türkmənistana səfər etmişdim. O səfərlər dönüş nöqtəsi idi. O səfərlərdən sonra geniş əməkdaşlıq formatı formalaşdı, yaradıldı və biz bu gün onun gözəl bəhrəsini görürük.

Cənab Prezident, mənim dəvətimi qəbul edib Azərbaycana səfər etdiyiniz üçün Sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Əminliyimi ifadə etmək istəyirəm ki, səfərinizin çox gözəl nəticələri olacaq. Türkmənistan və Azərbaycan bir-birinə daha da yaxın olacaq. Sağ olun.

x x x

**Prezident Qurbanqulu Berdiməhəmmədovun bəyanatı**

-Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri.

Xanımlar və cənablar.

Əvvəlcə Türkmənistanın nümayəndə heyəti adından Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə, bütün azərbaycanlı dostlara və həmkarlara göstərilmiş qonaqpərvərliyə, səmimi qəbula və birgə iş üçün gözəl şəraitin yaradılmasına görə səmimi minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün Türkmənistan ilə Azərbaycan arasında ən yüksək səviyyədə danışıqlar aparıldı. Həmin görüşlər zamanı ikitərəfli münasibətlərin durumu və perspektivləri, regional və beynəlxalq siyasət məsələləri müzakirə olundu, gələcək qarşılıqlı fəaliyyətimizin konkret istiqamətləri təyin edildi.

İki ölkə arasında ənənəvi olan qarşılıqlı inam və açıqlıq mühitində keçən danışıqların konstruktiv və məzmunlu xarakterini xüsusilə qeyd edirəm. Görüşlər zamanı bu gün bütün istiqamətlərdə - siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə aparılan ikitərəfli dialoqun indiki səviyyəsini yüksək dəyərləndirdik.

Azərbaycan ilə əlaqələrimiz qarşılıqlı hörmət, bərabərlik və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri əsasında dinamik və yüksələn xətlə inkişaf edir.

Hörmətli azərbaycanlı dostlarımız, hörmətli qardaşlarımız, Azərbaycan bizim mühüm və etibarlı tərəfdaşımızdır. Biz Mərkəzi Asiya, Xəzər hövzəsi zonasında sülhün, sabitliyin və təhlükəsizliyin təmin edilməsi, burada səmərəli əməkdaşlıq mexanizmlərinin qurulması üçün müvafiq şəraitlərin yaradılması məqsədilə fəal şəkildə birgə çalışırıq.

Türkmənistan və Azərbaycan arasında qarşılıqlı addımlar bu gün strateji sabitlik və regional proseslərin müsbət inkişaf amilidir. Hər iki ölkə Xəzəryanı məkanın Avrasiyada uzunmüddətli sabitliyin mənbəyinə, geniş beynəlxalq tərəfdaşlığın arenasına çevrilməsinin tərəfdarıdır.

Keçirilmiş danışıqlarda iki ölkənin nüfuzlu beynəlxalq və regional strukturlar - Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, İslam Əməkdaşlıq Təşkilatı və İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində fəal əməkdaşlıq etməsinə hazırlıq vurğulandı.

Hörmətli dostlar, Türkmənistan ilə Azərbaycan arasında sıx qarşılıqlı fəaliyyət Xəzər dənizində beştərəfli tərəfdaşlıq çərçivəsində davam edəcək. Mən bir daha təkrar etmək istəyirəm ki, bu əməkdaşlıq beştərəfli əməkdaşlıqdır. Biz iqtisadi əməkdaşlıq məsələlərini təfərrüatı ilə müzakirə etdik və iki dövlətin güclü sənaye və infrastruktur potensialına uyğun olaraq bu sahədə qarşılıqlı fəaliyyətin artırılmasının zəruriliyi haqqında ümumi rəyə gəldik.

Danışıqlar zamanı Türkmənistan ilə Azərbaycan arasında ticarət sahəsində tərəfdaşlığa, qarşılıqlı mal dövriyyəsinin artırılması və şaxələndirilməsinin zəruriliyinə xüsusi diqqət yetirildi. Biz qarşılıqlı ticarətin genişləndirilməsi, sənaye, xidmətlər və aqrar kompleks sahələrində geniş birgə layihələrin həyata keçirilməsi üçün sərmayə siyasətinin fəallaşdırılması məqsədilə tədbirləri nəzərdən keçirmək barədə razılığa gəldik. Bu baxımdan iki ölkənin biznes qurumlarının xətti ilə qarşılıqlı fəaliyyət mühüm rol oynamalıdır.

Əməkdaşlığımızın strateji istiqamətləri energetika və nəqliyyatdır. Türkmənistan və Azərbaycan enerji daşıyıcılarının istehsal həcminə görə Avrasiyada lider mövqeləri tutur. Bizim müasir infrastrukturumuz var və söhbət nəinki Avrasiya və regiondan gedir, mən söyləyə bilərəm ki, bütün dünyada ölkələrimiz məhz enerji daşıyıcılarının istehsal həcminə görə lider mövqeyindədir. Müvafiq infrastrukturumuz var, enerji və nəqliyyat marşrutlarının konfiqurasiyası ilə bağlı ümumi rəyimiz mövcuddur. Enerji və nəqliyyat axınlarının şaxələndirilməsi baxımından biz öz potensialımızın davamlı istifadəsi, yeni, birgə layihələrin reallaşması üçün bütün imkanlardan istifadə edəcəyik.

Danışıqlar zamanı iki ölkə arasında geniş mədəni, humanitar, elmi, təhsil və idman əlaqələrinin daha da inkişafı və həvəsləndirilməsi üzərində ümumi razılıq əldə olunmuşdur.

Hörmətli azərbaycanlı dostlarımız və qardaşlarımız, nümayəndə heyətimiz bugünkü görüşlərin nəticələrini yüksək dəyərləndirir. Yekun olaraq, böyük ikitərəfli sənədlər paketi imzalandı.

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri, Türkmənistan Azərbaycan ilə münasibətlərinə xüsusi əhəmiyyət verir, onu qardaş dövlət sayır. Ölkələrimiz və xalqlarımız əsrlər boyu formalaşmış yaxşı qonşuluq, ümumi tarix, mədəniyyət, dil və mənəvi dəyərlər ənənələri ilə bağlıdır. Biz bu irsi xüsusi olaraq qoruyub saxlayırıq, ona müasir reallıqlar ruhunda yeni məzmun gətiririk. Qarşımızda duran əsas məqsəd ənənələrimizin və ən ülvi dəyərlərimizin gələcək nəsillərə çatdırılmasından ibarətdir.

Türkmənistan ilə Azərbaycan arasında əməkdaşlıq bütün istiqamətlər üzrə durmadan inkişaf edəcək. Bu, iki ölkənin və xalqın uzunmüddətli maraqlarına cavab verir, beynəlxalq proseslərin müsbət inkişafının güclü amilidir.

İkitərəfli əlaqələrin gücləndirilməsində, Türkmənistanla əməkdaşlıq məsələlərinə daimi diqqətin göstərilməsində Azərbaycan Prezidentinin böyük şəxsi xidmətlərini xüsusi qeyd etmək istəyirəm. Hörmətli İlham Heydər oğlu, icazə verin, Azərbaycan ilə Türkmənistan arasında qardaşlıq əlaqələrinin inkişafına göstərdiyiniz yüksək diqqətə görə Sizə dərin minnətdarlığımı bildirim.

Hörmətli iştirakçılar, hörmətli qardaşlar və həmkarlar, sonda qardaş Azərbaycan xalqını bir daha salamlayır, ona sülh, rifah və tərəqqi arzu edirəm. Sizə bu arzularımı bütün türkmən xalqı adından çatdırıram. Diqqətinizə görə minnətdaram.

# Baş nazir Artur Rasi-zadə Türkmənistan Prezidenti ilə görüşüb

***Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə avqustun 8-də ölkəmizdə rəsmi səfərdə olan Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında münasibətlərin inkişaf perspektivlərinə dair müzakirələr aparılıb.***



Baş nazir Artur Rasi-zadə Azərbaycan ilə Türkmənistanın siyasi əlaqələrinin yüksək səviyyədə olduğunu bildirib. Azərbaycan-Türkmənistan iqtisadi əməkdaşlığının genişləndirilməsi üçün yaxşı potensialın olduğunu qeyd edən Baş nazir ölkəmizin regionun tərəqqisindəki rolunu diqqətə çatdırıb. Artur Rasi-zadə hər iki ölkənin geniş imkanlara malik olduğunu vurğulayıb.

Prezident Qurbanqulu Berdiməhəmmədov Türkmənistanın Azərbaycan ilə bütün istiqamətlərdə, o cümlədən iqtisadi-ticari sahədə əməkdaşlığın inkişafında maraqlı olduğunu deyib. Türkmənistan dövlətinin başçısı neft və qaz istehsalçısı və ixracatçısı olan Azərbaycanın bu sahədəki fəaliyyətinə toxunub, ölkəmizin bununla bağlı liderliyinin əhəmiyyətini qeyd edib. Görüşdə Xəzər dənizinin hüquqi statusunun həlli yolları, geosiyasi və geoiqtisadi məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# XİN rəsmisi Ermənistanın təxribatçı əməllərindən danışdı




"Ermənistan silahlı qüvvələrinin qoşunların təmas xətti və Ermənistan-Azərbaycan sərhədi boyunca yaşayış məntəqələrini atəşə tutması və mülki insanları qəsdən hədəfə alması kimi əməllərinin nəticəsində 7 avqustda Tovuz rayonunun Qaralar kəndinin sakini 13 yaşlı Yusifov Ramin xəsarətlər alıb". Bunu SİA-ya açıqlamasında Azərbaycan XİN-nin Mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev qoşunların təmas xətti və Ermənistan-Azərbaycan sərhədindəki vəziyyətlə bağlı məsələyə münasibət bildirərkən deyib. Onun sözlərinə görə, 4 iyul tarixində isə Ermənistan silahlı qüvvələrinin Füzuli rayonunun Alxanlı kəndini ağır silahlardan hədəfli şəkildə və qəsdən atəşə tutması nəticəsində 51 yaşlı Allahverdiyeva Sahibə və onun 2 yaşlı nəvəsi Quliyeva Zəhra qətlə yetirildi, 52 yaşlı Quliyeva Sərvinaz isə ağır yaralandı: "Ermənistanın bu vəhşiliyinin, xüsusilə azyaşlı uşağı və qadınları hədəfə almasının beynəlxalq ictimaiyyət tərəfindən kəskin şəkildə pislənilməsinə baxmayaraq, Ermənistan bu çirkin əməllərindən nəticə çıxarmayaraq 7 avqustda 13 yaşı Yusifov Raminin yaralanması ilə nəticələnən növbəti barbar əməli törətdi. Mülki insanların, o cümlədən uşaqların hədəfə alınması və qətlə yetirilməsi məqsədi daşıyan qəddar əməllər Ermənistanın siyasi-hərbi rəhbərliyinin yürütdüyü dövlət terrorizm siyasətidir. 25 ildən artıq dövr ərzində Ermənistanın Azərbaycana qarşı apardığı müharibə nəticəsində Ermənistan tərəfindən çoxsaylı hərbi cinayətlər, soyqırım və bəşəriyyət əleyhinə cinayət əməlləri törədilib. Xocalı soyqırımı bunun ən dəhşətli və qanlı nümunələrindən biridir.

2016-cı ilin aprelində Ermənistan rəhbərliyinin törətdiyi hərbi avantüra nəticəsində cəbhə xətti boyunca 34 mülki şəxs yaralandı, arasında uşaq olmaqla 6 nəfər həlak oldu. Mülki Azərbaycan əhalisinin təhlükəsizliyini təmin etmək üçün Azərbaycan silahlı qüvvələri əks-həmlə tədbirləri həyata keçirdi, atəş məntəqələrini susdurdu və işğal altında olan bir sıra strateji məntəqələri işğaldan azad etdi.

Ermənistan Respublikasının yenilənmiş hərbi doktrinasında cəbhə xətti boyunca asimmetrik hücumların həyata keçirilməsi və bu xüsusda mülki insanların və obyektlərin hədəfə alınması artıq açıq şəkildə təsbit olunub. Ermənistana münasibətdə hökm sürən cəzasızlığın nəticəsidir ki, Ermənistanın hərbi rəhbərliyi mülki insanlar və mülki obyektlərin hədəfə alınmasından çəkinmədiklərini etiraf edən bəyanatlarla çıxış edirlər. Ermənistanın Azərbaycan mülki əhalisinə və mülki obyektlərə birbaşa və qəsdən hücumları, beynəlxalq humanitar hüququn və insan haqlarının, xüsusilə 1949-cı il Cenevrə konvensiyaları və ona 1 saylı Əlavə, həmçinin Uşaqların hüquqlarına və İnsan hüquqlarının müdafiəsi və fundamental azadlıqlara dair Konvensiyanın ciddi şəkildə pozulmasıdır. Müasir beynəlxalq hüquqa əsasən bu əməllərə görə bir dövlət olaraq Ermənistan Respublikası ilə bərabər, Ermənistanın siyasi-hərbi rəhbərliyində olan şəxslər də bilavasitə məsuliyyət daşıyırlar.

Ermənistanın Azərbaycan ərazilərinin işğalını davam etdirməsi və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğu danışıqlar prosesinə ciddi maneədir, hərbi risklərin və gərginliyin yaranmasının əsas səbəbidir. İşğala əsaslanan qəbuledilməz və qeyri-davamlı status-kvonun dəyişdirilməsi üçün ilk növbədə Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması təmin olunmalıdır. 26 iyul tarixində Xarici İşlər və Müdafiə Nazirlikləri Ermənistanın təmas xətti və Ermənistan-Azərbaycan sərhədi boyunca sistematik şəkildə atəşkəsi pozması, təxribatlar törətməsi və qəsdən yaşayış məntəqələrini və mülki insanları hədəfə alması barədə Ermənistana xəbərdarlıq məqsədi daşıyan birgə bəyanatla çıxış etdilər. Bir daha bəyan edirik ki, Ermənistanın törətdiyi təxribat və hücumların qarşısını almaq üçün Azərbaycanın atmalı olacağı addımların məsuliyyəti tam şəkildə Ermənistanın üzərinə düşür".

# "Ermənistanın vəhşiliklərinə qarşı cəza tədbirləri görülməlidir"



"Ümumiyyətlə beynəlxalq təşkilatlar, dünya birliyi ermənilərin uzun illər boyu dinc insanlara, uşaqlara, körpələrə, qocalara, xəstələrə yeni silahsız mülki insanlara qarşı törətdikləri cinayətlərə barışmaz mövqedə olmalıdırlar, cəza tədbirləri görməlidirlər, sanksiyalar tətbiq etməlidirlər". Bunu SİA-ya açıqlamasında millət vəkili Elman Məmmədov deyib. Onun sözlərinə görə, təəssüflər olsun ki, insan hüquqlarından, demokratiyadan boğazdan yuxarı dəm vuran həmin beynəlxalq təşkilatlar, həmin Avropa dövlətləri və s. bu günə kimi ermənilərə "gözünün üstündə qaşın var" deməyiblər. Hesab edirəm ki, onlar bundan sonra da deməyəcəklər: "Çünki elə erməniləri qidalandıran, ürəkləndirən, təlimatlandıran, təmin edən bunlardır. Bu gün həmin inkişaf etmiş o Avropa dövlətlərinin ABŞ-ın özündə də çox sərbəst şəkildə açıq-aşkar erməni terror təşkilatları mövcuddur və fəaliyyət göstərir. Belə olan halda da biz 1988-ci ildən başlamış Ermənistanın Azərbaycana qarşı törətdiyi soyqırımları, kütləvi qırğınları göstərə bilərik. Bunlara qarşı hər hansı bir cəza tətbiq olundumu? Təbii ki, xeyir.

Amma baxın, Ukrayna məsələsində bütün Avropa, ABŞ Rusiyaya qarşı ən sərt cəza tədbirləri, sanksiyaları tətbiq edir. Axı bunun fərqi nədir? Bizdə insanıq və bizdə bu beynəlxalq birliyin, BMT-nin, ATƏT-in üzvüyük. Bizə qarşı ermənilər tərəfindən törədilən bu cinayətlərə görə niyə ermənilər cəzalanmır və onlara sanksiyalar tətbiq olunmur. Beləcə cəzasızlıq hiss edən Ermənistan bu hərəkətlərini günü-gündən də gücləndirir və davam etdirir".

# Müdafiə Nazirliyi: düşmənin təxribat qrupunun bir üzvü sərrast atəşlə məhv edilib



Avqustun 8-də gündüz saatlarında cəbhənin Xocavənd-Füzuli istiqamətində Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupu növbəti dəfə təxribat törətmək məqsədilə mövqelərimizə basqın etməyə cəhd göstərib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dərhal görülən tədbirlər nəticəsində geri çəkilməyə məcbur edilən təxribat qrupunun bir üzvü sərrast atəşlə məhv edilib. Qoşunlarımız heç bir itki verməyib və əməliyyat şəraiti tam nəzarətimizdədir.

# Millət vəkili: "Ermənistan bütün imkanlarından istifadə edir ki, danışıqlara xələl gətirsin"



"Ümumiyyətlə Ermənistan öz təxribatından əl çəkmir. Ermənistan bütün imkanlarından istifadə edir ki, danışıqlar prosesinə xələl gətirsin. Rəsmi İrəvanın Tovuz-Qazax istiqamətində atdığı təxribatçı addımların səbəbi ondan ibarətdir ki, Azərbaycanın öz ərazilərində anti-terror əməliyyatı keçirmək hüququ var". Bunu SİA-ya açıqlamasında millət vəkili Rövşən Rzayev deyib. Onun sözlərinə görə, Ermənistan ordusu Azərbaycan ordusunun qarşısında heç bir uğurlu əməliyyat keçirə bilməməsinə görə, digər dövlətlərin silahlı qüvvələrini cəlb etməkdən ötrü Azərbaycanın Dağlıq Qarabağdan çox kənar olan Tovuz-Qazax bölgəsində təxribat addımları atırlar ki, Azərbaycan ordusu onlara cavab atəşi ilə zərbə vurandan sonra desinlər ki, Azərbaycan Ermənistana atəş açır. Düşünürəm ki, rəsmi İrəvan bunu etməklə öz problemlərini, işğalçı siyasətlərini davam etdirmək istəyir. Ona görə də biz həmişə ayıq olmalıyıq və bu cür təxribatlara lazımi cavab verməliyik".

# "Ermənilərin daşı - daş üzərində qalmayacaq"



"Azərbaycanın apardığı düzgün beynəlxalq siyasəti sayəsində son vaxtlar işğalçı kimi tanınan və nüfuzdan düşən Ermənistan Azərbaycanın yaşayış məntəqələrinə, dinc sakinlərinə, uşaqlara atəş açmaqla yenidən gündəmə gəlmək istəyir". Bunu SİA-ya açıqlamasında millət vəkili Azər Badamov deyib. Onun sözlərinə görə, hamı artıq bilir ki, erməni əsgərinin gücü ancaq dinc sakinlərə, azyaşlı uşaqlara çatır: "Onlar hələ də başa düşmürlər ki, az yaşlı uşaqlara xəsarət yetirməklə dünyada özlərinə nifrətini artırırlar. Həm də erməni quldurları Azərbaycan ordusunun gücündən xəbərdardır və bilirlər ki, bizim hərbi qüvvələrimiz istiqamətində hər hansı təxribat törədəndə özləri ağır itkilərə məruz qalırlar. Ona görə də ermənilər mülki insanları hədəf seçirlər. Bunu beynəlxalq təşkilatlar görməli və erməniyə qarşı tədbir görməyə hərəkətə keçməlidirlər. Çox təəssüf ki, insan haqlarından, demokratiyadan, haqq-ədalətdən danışan bu təşkilatlar heç səsini də çıxarmırlar. Ermənilər də bundan istifadə edərək yaşayış məntəqələrimizi mütəmadi olaraq atəşə tutmaqda davam edirlər. Azərbaycan əsgəri heç vaxt mülki insanlara atəş açmayıb. Əgər ermənilərin yaşayış məntəqələrimizi hədəfə alması davam edərsə Azərbaycan da ermənilərin yaşayış məntəqələrini hədəfə almağa məcbur olacaq və onda ermənilərin daşı - daş üzərində qalmayacaq".

# Baş Prokurorluq: Ermənistanın təxribatçı əməlləri ilə bağlı cinayət işi başlanıb



Azərbaycan Respublikasının işğal altında olan ərazilərində yerləşən Ermənistan silahlı qüvvələri təcavüzkar əməllərini növbəti dəfə davam etdirərək iriçaplı silahlardan Azərbaycan Silahlı Qüvvələrinin cəbhəboyu mövqelərini və mülki əhalinin yaşadığı əraziləri intensiv atəşə tutmaqla beynəlxalq humanitar hüquq normalarınının tələblərini kobud surətdə pozub. Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Ermənistan ordusunun bölmələri avqustun 7-də saat 20 radələrində Azərbaycanın işğal olunmuş ərazilərindən Tovuz rayonunun Ermənistanla həmsərhəd olan Qaralar kəndini iriçaplı silahlardan atəşə tutaraq mülki əhalinin qəsdən məhv edilməsi məqsədilə növbəti təxribat törədiblər. Nəticədə Qaralar kənd sakini - 2004-cü il təvəllüdlü Yusibov Ramil Sabir oğlu ot biçinindən gələrkən qəlpə xəsarətləri alaraq ağır vəziyyətdə xəstəxanaya yerləşdirilib.

Həmin faktla bağlı Tovuz Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 116.0.10-cu (silahlı münaqişə zamanı mülki əhaliyə və ya döyüşlərdə iştirak etməyən ayrı-ayrı mülki şəxslərə hücum etməklə beynəlxalq humanitar hüquq normalarını pozma), 29,120.2.7-ci (iki və ya daha çox şəxsi qəsdən öldürməyə cəhd) maddələri ilə cinayət işi başlanıb, istintaq aparılır.

# İbrahim Türkmən: Prezident İlham Əliyevin 2017-ci ili Azərbaycanda "İslam Həmrəyliyi İli" elan etməsi tarixi qərardır




***Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin rəhbərliyi ilə Tehranda səfərdə olan Azərbaycan nümayəndə heyəti avqustun 7-də İranın Mədəniyyət və İslam Əlaqələri Təşkilatının sədri Əbuzər İbrahimi Türkmən ilə görüşüb.***

Azərbaycanı dost və qardaş ölkə adlandıran Ə.İ.Türkmən iki ölkə arasında münasibətlərin inkişaf dinamikasının sevindirici olduğunu deyib. O bildirib ki, mədəni əlaqələrin yaxınlaşdırılması istiqamətində bir sıra əhəmiyyətli addımlar atılıb. Ötən ay Tehranda Azərbaycan mədəniyyəti günlərinin keçirildiyini xatırladan Ə.İ.Türkmən xalqlarımızın ortaq mənəvi dəyərlərə malik olduğunu qeyd edib. Nəzərə çatdırılıb ki, Azərbaycan Prezidentinin 2017-ci ili ölkədə "İslam Həmrəyliyi İli" elan etməsi olduqca əhəmiyyətli və tarixi qərardır. Bu gün dünyada, xüsusilə İslam aləmində baş verən hadisələr həmrəyliyi zərurətə çevirib. Azərbaycan Prezidentinin də həmrəylik çağırışları İslam dünyasında sülhün bərqərar olmasına xidmət edir. Buna görə də Azərbaycan Prezidentinin bu təşəbbüsünə hərtərəfli dəstək verilməlidir.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə Tehranda "İslam həmrəyliyi İran-Azərbaycan dostluğu timsalında" mövzusunda konfransın keçirilməsində təşkilatçı qismində iştirak etdiyinə görə minnətdarlığını bildirib. Qeyd edib ki, konfransda İranın görkəmli din alimləri iştirak edərək həmrəylik haqqında öz fikirlərini çatdırıblar. Bu konfrans Bakıda da keçiriləcək və İran tərəfi geniş tərkibdə dəvət olunacaq. Allahşükür Paşazadə İran-Azərbaycan münasibətlərinə toxunaraq qeyd edib ki, iki qardaş ölkə arasında nifaq salmağa çalışanlar buna nail ola bilməyiblər. İnşallah, bundan sonra da nail ola bilməyəcəklər, çünki bizim əlaqələrdə mənəvi dəyərlərə üstünlük verilir. Görüşdə iştirak edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2016-cı ili ölkədə "Multikulturalizm İli", 2017-ci ili isə "İslam Həmrəyliyi İli" elan etməsi təsadüfi xarakter daşımır. Bu gün İslam dünyasında mürəkkəb proseslər gedir. İslam dünyasında daha çox vəhdətə və həmrəyliyə ehtiyac duyulur. M.Qurbanlı bildirib ki, eyni mahiyyətli konfransın ilin sonunadək Özbəkistan, İspaniya, Türkiyə, Mərakeş, Rusiyada da keçirilməsi nəzərdə tutulub. Görüş zamanı mədəni əlaqələrin daha da yaxınlaşdırılması məsələləri müzakirə edilib. Milli Məclisin deputatları Eldar İbrahimov, Hikmət Məmmədov, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu və İrandakı səfiri Bünyad Hüseynov görüşdə iştirak ediblər.

***Rabil Kətanov***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Tehran***

## "Azəriqaz": Ölkədə 2 milyon 56 min 346 abonent təbii qazla təmin olunub

Bu ilin yanvar-iyul ayları ərzində SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyində əhali sektoru üzrə 52 min 194 yeni abonent qeydiyyata alınıb. Bunun da 24 min 615-i Bakı, Abşeron və Sumqayıt, 27 min 579-u isə regionlar üzrədir. Birlikdən AZƏRTAC-a bildirilib ki, bununla da ölkə üzrə təbii qazla təmin olunan abonentlərin sayı 2 milyon 56 min 346-ya çatıb. Avqustun 1-i tarixə olan məlumata görə qeyri-əhali sektoru üzrə 440 məscid və dini məbədə təbii qazdan istifadə üçün limit ayrılıb.



## Şkelqim Bozqo: TAP-ın Albaniyadan keçən hissəsinin yarısının inşası tamamlanıb

Azərbaycan təbii qazının Avropaya nəqlini nəzərdə tutan "Trans-Adriatik" (TAP) qaz boru kəmərinin Albaniya ərazisindən keçən hissəsinin yarısının inşası tamamlanıb. AZƏRTAC xəbər verir ki, bunu TAP-ın Albaniya üzrə baş direktoru Şkelqim Bozqo deyib. O qeyd edib ki, qarşıdakı iki il ərzində layihə üzrə Albaniya iqtisadiyyatına 800 milyon avro yönəldilməsi nəzərdə tutulur. Ötən ilin əvvəlindən işlər yekunlaşanadək Albaniyada TAP-a 1,5 milyard avro investisiya qoyulması planlaşdırılır. 2017-ci və 2018-ci illərdə isə layihəyə hər il 400 milyon avro xərclənəcək: "Bu, Albaniya ÜDM-nin 4 faizi deməkdir. İki minədək alban layihə çərçivəsində işlə təmin olunub". Ş.Bozqonun sözlərinə görə, TAP-ın dəniz hissəsi üzrə işlərin 2018-ci ilin əvvəldə başlanması planlaşdırılır. Tikinti işləri bir neçə il davam edəcək. Həmçinin 2019-cu ildə TAP boru kəmərinin ilk sınağı keçiriləcək.

## Pakistanda partlayış olub, 34 nəfər yaralanıb



Pakistanın Lahor şəhərində baş verən partlayış nəticəsində 34 nəfər yaralanıb. APA-nın RİA Novosti agentliyinə istinadən verdiyi xəbərə görə, şəhərin qərb hissəsində yük maşını partlayıb. Hadisənin səbəbləri hələ ki, məlum deyil. İlkin versiyaya əsasən, yük maşını transformatora çırpıldıqdan sonra partlayış baş verib. Polis avtomobildə quraşdırılmış partlayıcı maddənin işə salındığını istisna etmir.

## Saltuk Düzyol: TANAP-ın inşası üzrə 1626 kilometr borunun qaynağı tamamlanıb



Avqustun əvvəlinə Azərbaycan qazını Türkiyəyə və bu ölkədən də Avropaya nəql edəcək Trans-Anadolu qaz boru kəmərinin (TANAP) quru hissəsinin inşası çərçivəsində 1804 kilometr uzunluğunda xəndək qazılıb. Bu barədə AZƏRTAC-a eksklüziv müsahibəsində TANAP-ın baş direktoru Saltuk Düzyol deyib.

"Faza-0, yəni 2018-ci ilin iyununda Türkiyəyə ilk təbii qazın verilməsi üçün görüləcək işlər çərçivəsində 1364 kilometr, Faza-1, yəni 2019-cu ilin sonunda Türkiyədən keçməklə Avropaya təbii qazın verilməsi üçün nəzərdə tutulan işlər üzrə isə 440 uzunluğunda xəndək qazılıb. Bu vaxtadək TANAP-ın tikintisi çərçivəsində ümumilikdə 1804 kilometr uzunluğunda xəndək qazılıb", - deyə S.Düzyol əlavə edib. TANAP-ın baş direktoru qeyd edib ki, Faza-0 üzrə 1346 kilometr, Faza-1 çərçivəsində isə 347 boru marşrut xətti boyunca düzülüb. Bundan başqa Faza-0 çərçivəsində 1342 kilometr, Faza-1 üzrə isə 283 uzunluğunda borunun qaynağı tamamlanıb. Ümumilikdə TANAP-ın əsas xətti üzrə 1694 kilometr boru marşrut boyunca düzülüb, 1626 kilometr borunun qaynağı isə tamamlanıb.

## Zirehli döyüş avtomobillərinin təmiri və texniki xidmət mərkəzinin açılışı olub



Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən Silahlı Qüvvələrin inkişaf etdirilməsi məqsədilə görülən fəaliyyətlər davam etdirilir. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirliyin rəhbərliyi müxtəlif təyinatlı təkərli zirehli döyüş vasitələrinin təmiri və texniki xidmət mərkəzinin açılışında iştirak edib.

Məruzə olunub ki, mərkəzdə Silahlı Qüvvələrin silahlanmasında olan döyüş texnikasının zirehli korpusu, avtomobil üzərindəki avadanlıq və silah sistemlərinə texniki qulluq göstəriləcək. Mərkəzdə mütəxəssislər tərəfindən sürücülər, tuşlayıcılar, operatorlar və digər ixtisaslar üzrə şəxsi heyətin hazırlanması üçün bütün şərait yaradılıb. Müdafiə naziri, general-polkovnik Zakir Həsənov mərkəzdəki silah anbarı, laboratoriya, digər xidməti və inzibati otaqlar ilə tanış olub. Mərkəzin fəaliyyəti ilə bağlı ətraflı brifinq təqdim olunduqdan sonra müdafiə naziri onun fəaliyyətinin və imkanlarının artırılması ilə bağlı müvafiq tapşırıqlar verib.

## Ramil Usubov Şəkidə vətəndaşlarla görüşəcək



Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov 2017-ci il avqust ayının 26-da saat 10:00-da Şəki Şəhər Rayon Polis Şöbəsində Şəki, Balakən, Qax, Oğuz, Zaqatala və Qəbələ şəhər və rayonlarının sakinlərini qəbul edəcək. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən SİA-ya verilən məlumata görə, vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər. Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

# Əsrə sığmayan ömür

## Görkəmli ictimai xadim, diplomat, jurnalist, tərcüməçi Bağır Seyidzadənin anadan olmasından 105 il keçir

***Azərbaycan tarixində şərəfli ömür yolu ilə bugünkü nəslə örnək olan parlaq şəxsiyyətlər çoxdur. Onlar xalq və Vətən qarşısında dəyərli işlər görüblər. Avqustun 9-da anadan olmasının 105 ili tamam olan Bağır Seyidzadə bu cür insanlardan biridir. O, qeyri-adi əməksevərliyi, xeyirxahlığı, fitri istedadı, nadir bilik və qabiliyyəti sayəsində dərin hörmət və ehtiram qazanıb. Bu nəcib keyfiyyətlərin isə nəsildən, ailədən qaynaqlandığına şübhə ola bilməz.***

### Seyidzadələr nəslinin yaxın tarixinə qısa ekskurs

Bağır Seyidzadənin babası Seyid Məmməd Qərbi Azərbaycanın (çar Rusiyası dövründə İrəvan quberniyasının) Qəmərli kəndinin varlı maldarlarından birinin təsərrüfatında muzdurluq edirdi. Sonradan bu ailənin qızı Ümmunisə ilə evlənmişdi. Seyid Məmməd həm də müxtəlif müalicəvi bitkilər toplayır, kənd camaatı üçün cürbəcür dərmanlar hazırlayırdı. Kənddə onu ehtiramla Seyid həkim çağırırdılar. Seyid Məmməd 1870-ci ildə özündən sonra dörd övlad qoyaraq 40 yaşında dünyadan köçüb.

Bağır Seyidzadənin atası Mirqasım kişi və əmisi Mirəli əsasən ticarətlə məşğul olurdular. Sonradan İrəvana köçən qardaşlar orada böyük ticarət şəbəkəsi qururlar. Ailə varlanmağa başlayır, lakin xoşbəxtlik uzun sürmür.

### Həssas qəlbli övlad

Bağır Mirqasım oğlu Seyidzadə 1912-ci ildə qədim Azərbaycan şəhəri İrəvanda dünyaya göz açıb. Onun altı yaşı olanda - 1918-ci ildə İrəvanda millətlərarası münasibət kəskinləşdiyi üçün Mirqasım ailəsini doğma yurdlarından köçürməli olur.

Bağır Seyidzadənin qızı Dilarə xanımın xatirələrindən: "Onlar 1918-ci ildə İrəvanda millətlərarası münasibətlər kəskinləşdikdən sonra şəhəri tərk edirlər. Mirəli artıq vəfat etmişdi. O, tacir kimi səfərdən qayıdarkən Qarsda dünyasını dəyişmiş və elə oradaca dəfn olunmuşdu. Yeri gəlmişkən, mən Türkiyədə onun məzarını axtarıb tapdım. Buna biz Türkiyədə səfərdə olanda ulu öndər Heydər Əliyevin sayəsində nail oldum. Odur ki, babam Mirqasım həm özünün, həm də qardaşının ailəsini götürüb Tiflisə gəlir".

Ailə Tiflisdə əsasən azərbaycanlıların yaşadığı Şeytanbazar məhəlləsində məskunlaşır. Mirqasım kişi ticarətini davam etdirir, qazandığı pullarla uşaqlarına mükəmməl təhsil verir. Dilarə xanım deyir ki, atası Bağır rus və fransız dillərini Tiflisdə öyrənmişdi.

1924-cü ildə Mirqasım kişinin ömür-gün yoldaşı vəfat edir və bu itki ailənin bütün üzvlərinin, xüsusən də Bağırın qəlbində dərin iz buraxır. Xədicə xanımı Tiflisdəki müsəlman qəbiristanlığında dəfn edirlər. On iki yaşlı Bağır tez-tez qəbiristanlığa gedirdi. Fikirləşirdi ki, bəlkə möcüzə baş verər, anası əbədiyyət yuxusundan ayılar və özünü qəbiristanlıqda tək görüb qorxar. Oğlunun iztirablarını görən Mirqasım kişi ailəsini Tiflisdən uzaq bir məkana köçürməyi qərara alır.

### Taleyin ironiyası

1925-ci ildə ailə Bakıya köçür. Bu o dövr idi ki, bolşevik istilasına baxmayaraq, Bakıda Azərbaycanı müstəqil görmək istəyən Hüseyn Cavid, Əhməd Cavad, bir qədər sonra onların sırasına qədəm qoyan Mikayıl Müşfiq, Almas İldırım yazıb-yaradırdılar. Bağır Seyidzadə Bakıda Tağıyevin fabrikində işə düzəlir və təhsilini fəhlə fakültəsində davam etdirir. Şəhərdəki ictimai-siyasi ab-havanı tezliklə dərk etsə də, nə evdəkilərə, nə də ətrafdakılara kimlərə rəğbət bəslədiyini bildirmir. Lakin illər ötdükdən sonra Moskvada aspiranturada oxuyan sevimli qızı Dilarəyə deyəcəkdi: "Qızım, əgər sən nə vaxtsa Azərbaycan tarixinin ən şərəfli və vacib dövrünə əsər həsr etsən, mütləq o dövrün mətbuatına diqqət yetir, ələlxüsus da "Füyuzat" jurnalına". Deməli, ürəyindəki rəğbəti füyuzatçılara imiş.

Gənc Bağır 1930-cu ildə fəhlə fakültəsini bitirdikdən sonra bir neçə ay "Kəndli" qəzetinin redaksiyasında korrektor işləyir. 1936-cı ildə isə Azərbaycan Sənaye İnstitutunun məzunu Bağır Seyidzadə "Gənc işçi" qəzetinə redaktor təyin olunur. Bu o qəzet idi ki, Mikayıl Müşfiq 1926-cı ildə orada "Bir gün" adlı ilk şeirini dərc etdirmişdi. Repressiya illərində hər dəfə bu tufanın apardığı adamların adlarını eşidəndə Bağır Seyidzadənin ürəyi qana dönürdü. Axı, çoxusu ilə münasibəti vardı... İkinci Dünya müharibəsinin başlanması Kremli Bakını türkçülük əhval-ruhiyyəsi olan azərbaycanlılardan təmizləmək siyasətini dayandırmağa məcbur etdi. Beləliklə, Bağır Seyidzadənin və onun kimi minlərlə vətənpərvər azərbaycanlının canı repressiyadan qurtardı. Dilarə xanımın xatirələrindən: "O vaxt belə bir qayda vardı - kim qəzetə rəhbərlik edirdisə, sonra respublika komsomolu Mərkəzi Komitəsinin ideologiya üzrə katibi seçilirdi. Beləliklə, atam respublika komsomolu Mərkəzi Komitəsinin ideologiya üzrə katibi seçildi və 1941-ci ildə Əziz Əliyevin başçılıq etdiyi azərbaycanlılardan ibarət böyük bir qrupla İrana getdi". Bağır Seyidzadə İrana yola düşən gün - sentyabrın 15-də atası Mirqasım kişi infarktdan keçinir. Övladın isə bundan xəbəri olmur. Qeys xanım qayınatası vəfat etdiyi üçün ərini qaytarmaq xahişi ilə MK-ya zəng etsə də, bir nəticə hasil olmur. MK Mirqasım kişinin dəfnin təşkil etməklə vəzifəsini bitmiş hesab edir. Vaxtilə hər gün anasının qəbrini ziyarət edən Bağır uzun illər atasının məzarına baş çəkə bilmir. Bu da taleyin ironiyası.

### Qismətinə çətin vaxtlar düşmüşdü



Görkəmli ictimai, siyasi və dövlət xadimi Əziz Əliyev İrana diplomatlar hazırlamaq üçün kadr seçəndə nəzakətli davranışı, hər kəslə ünsiyyət qurmaq bacarığı ilə başqalarından fərqlənən Bağır Seyidzadənin üzərində dayanır və onu Moskvaya SSRİ Xarici İşlər Nazirliyindəki Ali Diplomatiya Məktəbinin altı aylıq kursuna göndərir. Moskvada fars dilini mükəmməl öyrənən və təhsilini fərqlənmə diplomu ilə bitirən Bağır Seyidzadə 1944-cü ildə SSRİ diplomatı kimi İrana göndərilir. Dilarə xanımın xatirələrindən: "Oraya gedəndə mənim cəmi 5 yaşım vardı, qayıdanda isə 10 yaşında idim. Atam müəyyən müddət Makuda işlədi, sonra onu Təbrizə vitse-konsul göndərdilər, daha sonra baş konsul təyin etdilər. Təbrizdə konsulluq bağlandıqdan sonra atam Bakıya qayıtdı".

Yazıçı Qılman İlkin Təbriz dövrünü belə xatırlayır: "Biz Təbrizdə Mirzə İbrahimovun rəhbərliyi altında ərəb əlifbası ilə "Vətən yolunda" qəzetini nəşr edirdik. Bağır Seyidzadə isə oraya diplomatik işə göndərilmişdi. Biz tez-tez görüşürdük. Ya biz onun yanına gedir, ya da o özü Təbrizdə bizə baş çəkirdi. Öz işindən maraqla danışırdı. Cənubi Azərbaycanda Milli Hökumətin qurulmasında onun böyük xidməti vardı. Hətta Milli Hökumət onu "21 Azər" medalına da layiq görmüşdü".

1941-1944-cü illər sovet diplomatiyasının İrandakı ən çətin illəri idi. Lakin Bağır Seyidzadə heç vaxt nə ailəsinə, nə qohum-əqrəbasına, nə də dost-tanışlarına İranda baş verənlərdən danışmayıb, İran onun üçün bağlı mövzu olaraq qalıb. İrandan sonra Moskva Bağır Seyidzadəni təcrübəli bir diplomat kimi Türkiyəyə göndərmək istəyir. Lakin Mircəfər Bağırov mərkəzə müraciət edərək onun Bakıda qalmasına nail olur və 1949-cu ilin fevral ayında Bağır Seyidzadəni kinematoqrafiya naziri təyin edir.

### Həyatın keşməkeşli yollarında

Bağır Seyidzadə kinematoqrafiyada olan problemlərin aradan qaldırılması üçün çox böyük işlər görür. Yeni nazirin dövründə Bakı Kinostudiyasında neftçilərdən bəhs edən "Bakının işıqları" bədii, habelə müxtəlif mövzularda "Böyük yol", "Hədiyyə xalçası", "Quba bağlarında", "Tərtərçay vadisində", "Mingəçevir", "Sovet Naxçıvanı", "Gədəbəyin sərvəti", "Abşeronun ocaqları", "Səhər nəğməsi", "Sovet Azərbaycanı", "Azərbaycanın müalicə ocaqları", "Elmlə dostluq şəraitində", "Arazın sahillərində", "Gözlərinizi qoruyun", "Xəzər neftçiləri haqqında dastan" və digər sənədli və elmi-kütləvi filmlər yaradılır.

"Sovet Azərbaycanı" sənədli filmi 1951-ci ildə Kann Beynəlxalq Kinofestivalında Azərbaycanın kino tarixində ilk dəfə olaraq xüsusi mükafata layiq görülür. "Xəzər neftçiləri haqqında dastan" və "Dənizi fəth edənlər" sənədli-bədii filmlərinə görə yaradıcı qrupun bir neçə üzvü sovet dövründə ən yüksək mükafatı - Lenin mükafatını alır. "Dənizi fəth edənlər" filmi həm də I Moskva kinofestivalında gümüş medalla mükafatlandırılır. Filmin çəkilişi ilə bağlı maraqlı bir faktı xatırlamaq yerinə düşər. Yaradıcı qrup Neft Daşlarında çəkilişə hazırlaşarkən neftçilər xəbər verirlər ki, anbaan fırtına başlaya bilər. Çəkiliş aparmaq çox təhlükəlidir. Amma nə fırtına, nə də dəniz təlatümü rejissor Roman Karmeni işindən çəkindirə bilməzdi. O, həmkarlarına müraciətlə: "Çəkirik, uşaqlar?" - səsləndiyi an arxadan kimsə ucadan dedi: "Əlbəttə, çəkirik!". Hamı arxaya çevriləndə qarşılarında mədəniyyət nazirinin müavini Bağır Seyidzadəni görür. Bu gözlənilməz hadisədən kino işçiləri əvvəlcə çaşbaş qalır, eyni zamanda, var qüvvə ilə çəkilişə başlayırlar. Hər şey yaradıcı qrupun ürəyincə olur.

Bağır Seyidzadənin kinematoqrafiya naziri kimi əldə etdiyi uğurlar onu Mircəfər Bağırovun gözündə ucaldırdı. Lakin naziri gözdən salmaq istəyənlər də az deyildi. Onlar gecə-gündüz Mərkəzi Komitəyə böhtan dolu məktublar yazırdılar. Mircəfər Bağırov 1951-ci ilin fevralında Bağır Seyidzadəni nazir vəzifəsindən azad etməyə məcbur olur. İşsiz qalan sabiq nazir öz taleyini həll etməli, ailəsini dolandırmalı idi. Axı o, ömür-gün yoldaşı Qeys xanımın, övladları Fuadın, Dilarənin, Xoşqədəmin yeganə ümidi idi. Bağır Seyidzadə Radioinformasiya Komitəsinə gələrək fars redaksiyasına işə götürülməsini xahiş edir. Onu nəinki işə götürür, hətta farsca birbaşa efiri də ona həvalə edirlər. 1953-cü ildə isə Bağır Seyidzadə Radioinformasiya baş idarəsində müavin vəzifəsinə irəli çəkilir. Çox keçmir ki, Mərkəzi Komitə Bağır Seyidzadəyə Poliqrafiya və Nəşriyyat İdarəsini yaratmağı tapşırır. Bu idarə 1958-ci ildə Azərbaycan Mədəniyyət Nazirliyinə birləşdiriləndən sonra Bağır Seyidzadə nazir müavini təyin olunur.

### Halal çörəkpulu və ya gülünc əmr

Nazir müavini işləyərkən tərcümə ilə də məşğul olan Bağır Seyidzadə halal çörəkpulu qazanan bir məmur idi. O, "Görkəmli adamların həyatı" silsiləsindən Natalya Muravyovanın "Viktor Hüqo", Leopold İnfeldin "Evarist Qalua", İohan Pestalotsinin "Seçilmiş pedaqoji əsərləri" kitablarını tərcümə etmişdi. Bağır Seyidzadənin uğurlarına paxıl-

# Əsrə sığmayan ömür

## *Görkəmli ictimai xadim, diplomat, jurnalist, tərcüməçi Bağır Seyidzadənin anadan olmasından 105 il keçir*

lıq edənlər yenə də dinc durmur, Mərkəzi Komitəyə anonim məktublar yazırdılar. Xalq Yazıçısı Qılman İlkinin xatirələrindən: "Hamı bilirdi ki, onun bir dəqiqə də olsun boş vaxtı yox idi, yarımçıq işlərini bitirmək üçün işdən sonra da idarədə qalırdı. Gecələr isə yuxunu israfçılıq sayaraq bədii tərcümə ilə məşğul olur, ailəsinin heç bir şeydə korluq çəkməsinə imkan vermirdi. Bu da həmkarlarında paxıllıq hissi doğururdu, onlar nəyin bahasına olursa-olsun ona zərbə vurmağa çalışırdılar. Nail oldular da. Onu işdən azad etdilər. İşdən azad edilməsi haqqında əmr çox gülünc səslənirdi..."

Azərinformun (indiki AZƏRTAC) baş redaktoru Azər Ələsgərov bu barədə yazırdı: "Bağır Seyidzadə nazir müavini işləyə-işləyə iki-üç kitab tərcümə edib onları nəşr etdirmişdi. Bu səbəbdən də belə bir məsələ qaldırılmışdı ki, o, tərcümə edərək filan qədər qonorar almışdır". Sonralar Mərkəzi Komitənin birinci katibi Vəli Axundov etiraf etmişdi ki, Bağır Seyidzadəni işdən əbəs yerə çıxarıb. Bu, tarixdə görünməmiş bir əmr idi. Amma Bağır Seyidzadə bu haqsızlığı da özünə xas dəyanətlə qarşılayır.

Dilarə xanımın xatirələrindən: "Onu nazir müavini vəzifəsindən azad edəndə, - bunu heç vaxt unutmayacağam, - yaman fikir çəkirdi. Firavan həyatımızı təmin edən yeganə mənbə onun tərcümələri idi. Onu isə "xidməti vəzifəsindən istifadə edərək tərcümələrlə məşğul olduğu" üçün işdən çıxarmışdılar... Atam hətta bütün bunların ədalətsiz olduğu barədə fikrimə tərəfdar çıxmadı".

### Jurnalistlik onda Allah vergisi idi

Bağır Seyidzadə hansı vəzifədə çalışırsa-çalışsın, yazıb-yaratmağa meyilli olub. Azərbaycan Sənaye İnstitutunun məzunu olsa da, jurnalistikanı həmişə həyatının əsas işi saymışdı. Dilarə xanımın xatirələrindən aydın olur ki, Bağır Seyidzadə hələ məktəbdə oxuyarkən, eləcə də tələbə olarkən divar qəzeti çıxarmışdı. Bəlkə də gənc Bağırın ürəyindən hələ o vaxt jurnalist olmaq keçmişdi.

Vaxtilə "İzvestiya" qəzetinin Azərbaycan üzrə müxbiri kimi Azərinforma tez-tez gələn jurnalist Elmira Əliyeva sonralar "Yaxşı ad qoyub gedənlər unudulmur" məqaləsində yazır: "Deyilənə görə, jurnalistlik onda Allah vergisi idi. Hərçənd ki, uzun illər yüksək və məsul vəzifələrdə çalışmışdı - kinematoqrafiya naziri, Təbrizdə sovet diplomatik nümayəndəliyinin rəhbəri. Təbrizə SSRİ Xarici İşlər Nazirliyi tərəfindən ezam olunmuş, burada tanınmış dövlət xadimi Əziz Əliyevlə birlikdə o zaman İranda baş verən proseslərdə bilavasitə iştirak etmişdi. Jurnalist İbrahim Novruzov kitabında yazır ki, Azərbaycanın o vaxtkı rəhbəri Bağırov hətta soruşmuşdu: Bu Seyidzadə yazıçıdır?"

Dilarə Seyidzadə deyir: "Atamın bütün məktubları, hesabatları təsdiq edir ki, o, əla jurnalist olmuşdur. Həyatda qarşılaşdığı bütün çətinlikləri dəf etməkdə atama daim yazması, redaktə və tərcümə işi ilə məşğul olması kömək edirdi. Atam azad ruhlu insan idi. Çoxşaxəli fəaliyyətinə baxmayaraq, qəlbən jurnalist olaraq qalmışdı".



### Canlı ensiklopediya, natiq, tərcüməçi-" pulemyotçu"

Bağır Seyidzadə həm də gözəl natiq idi. Elmira Əliyevanın məqaləsində oxuyuruq: "Bir dəfə, 1939-cu ildə, respublika rəhbərliyi tərəfindən ona tapşırılır ki, filarmoniyada keçirilən iclasda XVIII partiya qurultayına ictimaiyyətin təbrik məktubunu oxusun. Qarşısındakı mətnə baxmadan təbriki oxuyan Seyidzadə hamını təəccübləndirmiş, elə o vaxt da diqqəti cəlb etmişdi..."

Dilarə xanım atasının müharibə illərində Səməd Vurğunun rəhbərlik etdiyi bir qrup Azərbaycan ziyalısı ilə birlikdə Novorossiysk cəbhəsində 416-cı, 77-ci və 223-cü diviziyalarda olduğunu xatırladaraq deyir ki, onlar özləri ilə incəsənət xadimlərini, müğənniləri aparır, konsertlər təşkil edir, mühazirələr oxuyurdular. Bağır Seyidzadə Səməd Vurğunla birlikdə Tiflisdə vətənpərvərlik mitinqində iştirak etmişdi. Onlar natiqlik məharəti və inamları ilə insanları coşdurur, öz ardınca aparırdılar.

Azərbaycan tərcümə məktəbinin baniləri arasında Bağır Seyidzadənin adı xüsusi ehtiramla çəkilir, çünki onun bu sahədə xidmətləri çox böyükdür. Azərinformun baş direktoru Yefim Qurviç ona tərcüməçi deyil, "pulemyotçu" deyərdi. Çünki Bağır Seyidzadə tərcümə zamanı mətni birbaşa, çox sürətlə və yüksək keyfiyyətlə makinaçıya diktə edirdi. Həmin mətn sonradan heç bir əhəmiyyətli düzəliş olunmadan mətbuata göndərilirdi.

Bağır Seyidzadənin ümdə arzusu vardı: ictimai-siyasi ədəbiyyatın tərcüməsində doğma Azərbaycan dilindən geniş istifadə olunsun, səriştəli mütəxəssislər mürəkkəb siyasi terminlərin qarşılığını tapmaqla tərcümə problemlərini həll etsinlər. Əməkdar Mədəniyyət İşçisi Ənvər Quliyevin dediyi kimi, onun leksikonunda "bilmirəm, bacarmaram" sözləri yox idi. O, canlı ensiklopediya idi.

Tanınmış jurnalist Tamilla Nuriyeva "O, məşhur Seyidovlar nəslindən idi" məqaləsində yazır: "Məsul vəzifələrdə işləməsinə baxmayaraq, həqiqət naminə etiraf etməliyik ki, onun gözəl Azərbaycan dilində tərcümə etdiyi kitablar özündən sonra qoyub getdiyi ən qiymətli xatirədir".

### Azərinformda yeni nəfəs

Bağır Seyidzadə 1963-cü ildə Azərinforma (indiki AZƏRTAC) baş direktorun müavini vəzifəsinə təyin edilir. Qızı Dilarə Seyidzadə bunu belə xatırlayır: "Bu, sadəcə xoşbəxt bir təsadüf idi. O vaxtlar qardaşım Fuad gənc memarların müsabiqəsinə təqdim edəcəyi işin tərtibatı ilə məşğul idi. Böyük bir planşetin fotoşəklini çəkməliydi, ona görə də böyük ölçüdə fotokağız axtarırdı. Atam dedi ki, Qurviçin yanına get. Ən yaxşı kağız AzərTA-dadır. Amma kimin oğlu olduğunu demə. Qurviç çox yaxşı insandır, o, sənə kömək edər. Qurviç isə Fuadın soyadını eşidən kimi onun Bağır Seyidzadənin oğlu olduğunu soruşmuşdu. Yəni, atam jurnalistikada tanınmış sima idi. Sonra Qurviç MK-ya təqdimat yazır və atam onun müavini olur".

Elmira Əliyeva məqaləsində yazır ki, "deyilənə görə, direktor Yefim Qurviç agentliyin rəhbərliyində öz yanında məhz Bağır Seyidzadəni görmək istəmişdi. Yəqin böyük həyat yolu keçmiş bu insana bələd imiş və layiqincə qiymətləndirirmiş. Beləcə, Bağır müəllim agentliyimizin həyatında mühüm rol oynayan insanlardan biri olub".

Dilarə xanım xatırlayır ki, atası AzərTAdakı işindən, sözün əsl mənasında, zövq alırdı: "Səhər saat 4-5-də evə qayıdanda daxilən işıq saçırdı. Gecələr mənasız hesab etdiyim məsələlərə görə durmadan ona zəng edən, daim nə isə soruşan cavanlar çox xoşuna gəlirdi. Mən hiddətlənirdim, o isə deyirdi ki, bunlar çox məsuliyyətli məsələlərdir. Bütün jurnalistlər - İsrafil Nəzərov, Xasay Vəzirov, Nəsir İmanquliyev "Gənc işçi" qəzetində işləmiş, ilk addımlarını bu gənclər qəzetində atmışdılar. Cəmil Əlibəyov elə hey deyirdi ki, Bağır Seyidzadə mənim müəllimimdir. Atam Vətənini, məşğul olduğu işi, doğma jurnalistikanı çox sevirdi".

Bağır Seyidzadə Azərinform üçün əsl tapıntı idi. Direktor müavini olması ilə yanaşı, həmçinin tərcümə şöbəsi müdirinin işini görür, bir çox hallarda qəzetin nömrəsinə gedən materialları özü tərcümə və redaktə edirdi. O, həm özünə, həm də əməkdaşlara qarşı çox tələbkar idi. Bağır Seyidzadə Azərinformda ömrünün son gününə qədər - 1968-ci il martın 24-dək işlədi. Əməyi layiqincə qiymətləndirilən Bağır Seyidzadə "Əməkdar Mədəniyyət İşçisi" fəxri adına layiq görülüb, "Qırmızı Əmək Bayrağı" və "Şərəf nişanı" ordenləri ilə təltif edilib.

### Sözardı və ya böyük insan haqqında

Bağır Seyidzadə ilə birlikdə işləyən insanlar bir qayda olaraq onun dostlarına, məsləkdaşlarına çevrilirdilər. Hələ "Gənc işçi" qəzetində redaktor olduğu dövr, yeni müharibəqabağı illər, çətin, mürəkkəb, insan mənəviyyatını imtahana çəkən zəmanə idi. O dövrdə dostluq, yoldaşlıq xüsusi cəsarət tələb edirdi. Bağır Seyidzadə insan ləyaqətini sınağa çəkən bu imtahandan üzüağ çıxdı. Jurnalistikamızın korifeylərindən olmuş Qulam Məmmədlinin xatirələrində yazdığına görə, əgər Bağır Seyidzadə olmasaydı, onun işləri müşkülə düşə bilərdi. Sən demə, onun məqalələrindən birində hansısa məqam respublika rəhbərliyinin xoşuna gəlməyib və yazılarına sərt qadağa qoyulub. O vaxt Bağır Seyidzadə ona demişdi: "Ürəyinə salma. Gəl belə edək, sən yaz, mən də onları öz adımla çap etdirib qonorarını sənə verərəm". Əlbəttə, bu cür hərəkət etmək hər adamın işi deyildi. Bunun üçün cəsarətdən savayı, başqasının dərdinə şərik olmağı bacarmaq da lazım idi. Belə keyfiyyət isə yalnız həssas təbiətli insanlarda olur. Bağır Seyidzadə də bu cür insanlardan idi.

Şərəfli ömür sürən Bağır Seyidzadə bu gün də səmimiyyətlə anılır, onunla bağlı xatirələr nəsildən-nəslə ötürülür. Şair İlyas Tapdıq "Məmməd Arazın məktubları"nda yazır: "Mən onda Məmmədə məktub yazıb bildirdim ki, məni işdən çıxarıblar. Kitabımla bağlı bütün şəhəri bürüyən söz-söhbətlə şəxsən maraqlanan MK-nın o vaxtkı katibi Nazim Hacıyev 1960-cı ilin payızında məni yanına çağırdı. Yığıncaqda mədəniyyət nazirini möhkəm danladı. Çox hörmətli və xeyirxah bir insanın - Baş Nəşriyyat İdarəsinin rəhbəri Bağır Seyidzadənin himayəsi sayəsində üç aydan sonra məni vəzifəmə bərpa etdi".

Dilarə Seyidzadənin xatirələrindən: "Atam təbiətən sadə, heç vaxt özü haqqında danışmayan, özünü tərifləməyən, əldə etdiyi nailiyyətləri ilə öyünməyən bir insan, çox mehriban ailə başçısı idi".

Cəmi 56 il yaşamış Bağır Seyidzadənin jurnalist, diplomat, nazir, tərcüməçi ömrü, sözün həqiqi mənasında, yaşadığı dövrün mühitinə sığmayan dəyərli işləri özündə ehtiva edir.

***Gözəl Ağayeva***
***AZƏRTAC-ın əməkdaşı,***
***filologiya üzrə fəlsəfə doktoru***

səs
www.sesqazeti.az
facebook Ses Media Holding
9 avqust 2017-ci il

# 2021-ci ilə qədər tütün istehsalı üçün əkin sahələri iki dəfə genişləndirilməlidir

*Prezident İlham Əliyev: "Əgər biz orta məhsuldarlığı 2 ton götürsək, hər il Azərbaycanda 12 min ton quru tütün istehsal olunacaq və bu, ölkəmizə böyük xeyir gətirəcək, valyutamız xaricə getməyəcək, əksinə, ixrac imkanlarımız da yarana bilər"*

***Son illər iqtisadiyyatın qeyri-neft sektorunun inkişafında müşahidə edilən dinamik artım ölkənin ümumi inkişafına təkan verən başlıca amillərdəndir. Qeyri-neft sektorunda coğrafiyasına və əhalinin məşğulluq səviyyəsinə görə, ən böyük sahə kənd təsərrüfatıdır. Azərbaycanda kənd təsərrüfatında ənənəvi sahələrdən biri də tütünçülükdür. Tütün sovet dönəmində respublikamızda geniş şəkildə istehsal olunurdu. Bu məhsulun istehsalının pik dövrü 1978-ci ilə təsadüf edir.***



Belə ki, 1970-ci ildə cəmi 14 min hektarda tütün əkilirdisə, Ulu Öndər Heydər Əliyevin fəaliyyəti nəticəsində, 1978-ci ildə bu göstərici 18 min hektara çatmışdı. 1990-cı ildə isə 14 minə düşmüşdü. 2014-cü ildə cəmi 1000 hektarda tütün əkilmişdi. Tədricən əkin sahələrinin artırılması hesabına 2016-cı ildə 2400 hektarda və 2017-ci ildə 3200 hektarda tütün əkilmişdi.



Bu gün artıq Azərbaycan Prezidenti İlham Əliyevin verdiyi tapşırıq, ondan ibarətdir ki, növbəti illərdə əkin sahələrini genişləndirmək lazımdır: "Bu məqsədlə dövlət və bələdiyyə mülkiyyətindəki əkinəyararlı və davamlı su təminatı olan torpaq sahələri ayrılmalıdır. Tütün istehsalçılarına güzəştli şərtlərlə kreditlər verilməlidir. Bu, lazımi səviyyədə deyil. Ona görə, bu sahəyə xüsusi diqqət göstərilməlidir.

Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə tütünçülüyün inkişafı üçün xüsusi bir plan tərtib edilməlidir. Burada da, bu təklif səsləndi ki, bizdə qəbul məntəqələri və qurutma kameraları lazımi səviyyədə deyil. Yəqin bunun da səbəbi ondan ibarətdir ki, - mən də bunu qeyd etdim, - iki il bundan əvvəl, cəmi üç rayonda tütün istehsal olunurdu, indi isə 13 rayonda. Bu rayonlarda istehsal artacaq. Ona görə, hər bir rayonda qəbul məntəqəsi və qurutma kameraları olmalıdır. Dövlət öz dəstəyini göstərməyə hazırdır. Mən İqtisadiyyat Nazirliyinə, Kənd Təsərrüfatı Nazirliyinə, Prezident Administrasiyasına tapşırıram ki, bu məsələ ilə məşğul olsunlar, bu kameralar tezliklə alınsın".



Prezident İlham Əliyev əsas vəzifələrdən biri də odur ki, Azərbaycanda siqaret istehsalı daha da artırması olduğunu bildirmişdir: "Mən bunu əvvəllər də demişəm, bu gün də deyirəm, biz elə etməliyik ki, Azərbaycan vətəndaşları az siqaret çəksinlər. Çünki bu, zərərli vərdişdir və insanın sağlamlığına çox böyük təhlükələr, problemlər yaradır. Ona görə, müvafiq tədbirlər görüləcək ki, Azərbaycan vətəndaşları bu vərdişdən tədricən əl çəksinlər. Ancaq bu gün Azərbaycanda siqaret istehlakı var. Mənə verilən məlumata görə, Azərbaycanda 10 milyard siqaret istehlak olunur. Onlardan isə, cəmi 1 milyard 600 milyonu Azərbaycanda istehsal edilir. Yəni 9 milyard siqaret Azərbaycana idxal edilir və bu məqsədlə Azərbaycandan hər il xaricə təxminən 150 milyon dollar valyuta gedir. Ona görə, biz daxili bazarı təmin etmək və xüsusilə, xarici bazarlara çıxmaq üçün tezliklə Azərbaycanda siqaret istehsalını inkişaf etdirməliyik. İlk növbədə, daxili bazar, idxaldan asılı olmamalıdır ki, valyuta ölkədən getməsin və ondan sonra biz ixrac məsələləri ilə də məşğul olacağıq".

Bir sözlə, bu gün Prezident İlham Əliyevin tapşırığı ondan ibarətdir ki, 2021-ci ilə qədər tütün istehsalı üçün əkin sahələri iki dəfə genişləndirilməlidir. İndiki 3200 hektardan təqribən 6 min hektara çatdırılmalıdır: "Buna imkan var və aidiyyəti qurumlar bu işlərlə ciddi məşğul olsunlar. Belə olan halda, əgər biz orta məhsuldarlığı 2 ton götürsək, hər il Azərbaycanda 12 min ton quru tütün istehsal olunacaq və bu, ölkəmizə böyük xeyir gətirəcək, valyutamız xaricə getməyəcək, əksinə, ixrac imkanlarımız da yarana bilər. Tütünçülüyün inkişafına dair Dövlət Proqramı qəbul ediləcəkdir. Proqram, demək olar ki, hazırdır. Bu gün səslənən fikirlər və mənim səfərim nəticəsində, apardığım müşahidələr də o proqrama əlavə olunaraq, tezliklə qəbul ediləcək. Bu proqramın qəbulu, bir daha onu göstərir ki, dövlət bu sahəyə çox ciddi fikir verir".

***"Səs" Analitik Qrupu***

# "Şəki-İpək" ASC-də burucu və toxucu istehsalatların fəaliyyətləri bərpa olunub

***Prezident İlham Əliyevin birbaşa diqqət və qayğısı ilə respublikamızda baramaçılığın inkişaf etdirilməsi, ipəkçiliyin müasir infrastrukturunun yaradılması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində bu il Azərbaycanda barama istehsalının bir neçə dəfə artaraq 244 tona çatması şimal-qərb bölgəsinin ən iri sənaye müəssisələrindən olan "Şəki-İpək" ASC-nin fəaliyyətini yenidən canlandırıb.***



Xəbər verdiyimiz kimi, iyulun 3-dən müəssisənin baramaaçan istehsalatı işə salınıb və burada yenidən xam ipək istehsalına başlanılıb. Avqustun əvvəlindən etibarən isə artıq müəssisənin burucu və toxucu istehsalatlarının da fəaliyyətləri bərpa edilib.

AZƏRTAC-ın müxbiri bu istehsal sahələrində olub, işçilərlə söhbətləşib. Kümçülərdən tədarük olunan yaş barama müəssisənin xammal şöbəsində çeşidlənib təmizləndikdən sonra baramaaçan istehsalatına göndərilir. Burada istehsal olunan xam ipək sap daha sonra müəssisənin burucu istehsalatına daxil olur. Bir teldən ibarət olan ipək sap sexdəki dəzgahların köməyi ilə alıcının sifarişinə əsasən, 3 teldən 10 telədək qalınlıqda burulur. Hazırda bu istehsal sahəsində 25 işçi çalışır. Texnoloq Firidə Həşimovanın bildirdiyinə görə, sexin fəaliyyətinin bərpa edilməsi işçilər tərəfindən böyük razılıqla qarşılanıb. İşçilərlə söhbət zamanı burucular Xatirə Bağbanlı, Sevil Kərimova, Tamella Tağıyeva və başqaları avqustun 4-də Qaxda keçirilən respublika müşavirəsində Prezident İlham Əliyevin "Şəki-İpək" ASC-nin fəaliyyətinin gücləndirilməsi ilə bağlı söylədiyi fikirləri böyük sevinc hissi ilə qarşıladıqlarını vurğulayıb, müəssisənin fəaliyyətinin yenidən bərpa edilməsinə göstərdiyi qayğıya görə kollektiv adından dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər. Burulmuş ipək sap sonra müəssisənin toxucu istehsalatına göndərilir. İstehsalatın meneceri Abbas İsrafilovun bildirdiyinə görə, burada 70 işçi çalışır. İstehsalatda SSRİ-də istehsal olunmuş 96 ədəd köhnə dəzgahla yanaşı, Almaniya istehsalı olan 6 ədəd ən müasir toxucu avadanlığı da quraşdırılıb. Bu dəzgahların məhsuldarlığı əvvəlkilərdən bir neçə dəfə çoxdur. Sexdə toxunan ipək parçadan əsasən kələğayı istehsalında istifadə olunur. İpək parçanın qalan hissəsi isə sifarişə uyğun olaraq doğranır, boyaq-bəzək sexində yuyulub ağardılır və daha sonra satışa göndərilir. Sexdə çalışan işçilərin orta aylıq əməkhaqqı 165-390 manat təşkil edir.





Toxucu istehsalatında çalışan ərişçi Sona Sadiqova və başqaları onlar üçün yaradılan şəraitdən razı qaldıqlarını bildiriblər.

Səhmdar Cəmiyyətin idarə heyətinin sədri Nizami Qəribov AZƏRTAC-a bildirib ki, hazırkı xammal ehtiyatı ilə müəssisənin burucu, toxucu və digər istehsal sahələri 8 ay müddətində normal fəaliyyət göstərə biləcək. Müəssisə rəhbəri deyib ki, Prezident İlham Əliyevin müşavirədə qeyd etdiyi kimi, növbəti ildə ölkədə barama istehsalının 500 tona çatdırılması qarşıya hədəf olaraq qoyulub. Xammal ehtiyatının artması müəssisənin ilboyu fasiləsiz fəaliyyətini təmin edəcək, eyni zamanda, ikinövbəli iş rejiminə keçmək də mümkün olacaq.

# SOCAR-ın Türkiyədəki layihələrinə ümumi investisiya qoyuluşu 19,5 milyard dolları ötəcək

SOCAR Türkiyədəki layihələrinə ümumilikdə 19,5 milyard dollar investisiya qoyuluşu həyata keçirəcək. AZƏRTAC xəbər verir ki, bunu "SOCAR Turkey Enerji A.Ş."nin (STEAŞ) xarici əlaqələr üzrə rəhbəri Murat LeCompte deyib.

"SOCAR Türkiyənin ən böyük xarici investorlarındandır. 2008-ci ildə "Petkim"i alaraq Türkiyədəki bazarına daxil olan SOCAR bu ölkədəki fəaliyyətini "SOCAR Turkey" vasitəsilə həyata keçirir. STEAŞ-ın məqsədi Türkiyə Cümhuriyyətinin 100-cü ildönümündə bu ölkəni dünyanın ən mühüm enerji dəhlizlərindən birinə çevirməkdir", - deyə o əlavə edib. M.LeCompte qeyd edib ki, "SOCAR Turkey"in şirkətləri və layihələri sırasında "Petkim", "Petlim", 2018-ci ildə fəaliyyətə başlayacaq "Star" neft emalı zavodu və yenə həmin il ilk qaz nəqlinin reallaşacağı TANAP kimi nəhəng investisiyalar var. İnvestisiyaların məbləği hazırda 12,6 milyard dollara çatıb. Ümumi investisiya qoyuluşu isə 19,5 milyard dolları keçəcək. Xatırladaq ki, SOCAR 2008-ci ilin mayından etibarən Türkiyədəki fəaliyyətini STEAŞ adı ilə davam etdirir.

# Sədaqət Vəliyeva: “Bölgələrimiz inkişafının keyfiyyətcə yeni mərhələsinə daxil olub”

***“Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev 2004-cü ildən başlayaraq, ölkə iqtisadiyyatında yeni bir istiqaməti - regionların sosial-iqtisadi inkişafını dövlət siyasətinin prioriteti elan etdi”. Bunu Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.***



Sədaqət Vəliyeva bildirib ki, Prezident İlham Əliyevin müəllifi olduğu regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının reallaşdırılması nəticəsində, ümumən Azərbaycanın tərəqqisi təmin edilmiş oldu: “2004-2008, 2009-2013 və 2014-2018-ci illəri əhatə edən proqramlar daxilində görülmüş işlər bir sıra hədəfləri reallaşdırmağı təmin edib. Birincisi, Azərbaycanın bütün bölgələrində abadlıq-quruculuq işləri həyata keçirilib, olimpiya kompleksləri, diaqnostika mərkəzləri, məktəblər, bağçalar, xəstəxanalar və bir çox istiqamətli müxtəlif sosial əhəmiyyətli obyektlər inşa edilərək, insanların istifadəsinə verilib. Ümumilikdə, görülmüş bu işlərin nəticəsində bölgələrin siması əhəmiyyətli şəkildə dəyişib-gözəlləşib. İkincisi, həyata keçirilən infrastruktur layihələri əsasında bölgələrdə yeni yollar salınıb, elektrik stansiyaları, qaz və su xətləri inşa edilib. Bununla da, hazırda Azərbaycanın, demək olar ki, bütün rayonlarında, qəsəbələrində, kəndlərində elektrik, qaz və su ilə təminat ən yüksək səviyyədədir. Üçüncüsü, regionlarda həyata keçirilən aqrar və sənaye layihələri əsasında Azərbaycanın kənd təsərrüfatı üçün ənənəvi sayılan sahələr dirçəldilib, bərpa edilib, yeni sənaye məhəllələri salınıb, istehsal müəssisələri inşa edilib. Bununla da, bölgələrdə yeni iş yerləri açılıb, insanların yaşayış səviyyəsi yüksəlib. Məhz bu proseslər bu gün də davam etdirilməkdədir. Bir sözlə, Cənab Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşdırılan regionların sosial-iqtisadi inkişafı dövlət proqramları Azərbaycanın kompleks inkişafının konseptual əsaslarını təşkil edir”.

“Bu gün hər bir azərbaycanlı əmindir ki, Cənab Prezident İlham Əliyevin rəhbərliyilə reallaşdırılan inkişaf kursu Azərbaycanı inkişaf etmiş ölkələrin sırasına çıxaracaq” - deyən deputat Sədaqət Vəliyeva əlavə edib ki, hazırda Azərbaycanın bütün bölgələrində lazımi infrastruktur layihələri uğurla icra edilib və bölgələrimiz inkişafının keyfiyyətcə yeni mərhələsinə daxil olub.

# Dövlət qayğısından yararlanan ağdamlı fermer pambıq sahələrini genişləndirəcək, yeni tut bağı salacaq

***Prezident İlham Əliyevin respublikada kənd təsərrüfatının inkişafı, yerli istehsalın artırılması ilə bağlı tapşırıqları Ağdam rayonunda da uğurla icra olunur. Cəbhə bölgəsinin fermerləri göstərilən diqqət və qayğıdan ruhlanaraq pambıqçılığı və baramaçılığı inkişaf etdirir, ölkəmizdə qeyri-neft sektorunun inkişafına öz töhfələrini verirlər.***



Ağdam rayon Xındırıstan kəndindən olan gənc fermer Yafəs Eyvazov bu il 40 hektar sahədə çiyid səpini həyata keçirib. Aqrotexniki qaydada qulluq sayəsində tarlalarda yaxşı bitiş əldə edilib. Gənc fermer hər hektardan 35 sentnerdən çox məhsul götürəcəyini deyir. Bundan başqa 2 hektarda lobya, 5 hektarda baş soğan, 1 hektarda toxumluq soğan becərib. Hazırda təsərrüfatda lobya və soğan yığımı davam edir.

Ölkəmizdə baramaçılığın və pambıqçılığın inkişafına göstərilən dövlət qayğısından ruhlanan fermer, gələcəkdə pambıq sahələrini daha da genişləndirmək, yeni tut bağı salmaq fikrindədir. “Pambıqçılığın və baramaçılığın inkişafına göstərilən dövlət qayğısı bizə əlavə stimul verir, fəaliyyətimizi daha genişləndirməyə həvəsləndirir. Avqustun 4-də Qaxda barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsində Prezident İlham Əliyev baramaçılığın inkişaf perspektivindən danışdı. Dövlət tərəfindən xaricdən tut tingləri alınıb gətirildiyini, növbəti illərdə əlavə 8 milyon tingin əkiləcəyini diqqətə çatdırdı. Bütün bunlardan ruhlanaraq, geniş şəkildə baramaçılıqla məşğul olmağı, 2,30 hektar sahədə 24 min tut tingi əkməyi planlaşdırmışam” - deyə Y.Eyvazov bildirib.

# “Zaman və məkan” adlı müsabiqə keçiriləcək

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı “Zaman və məkan” adlı qısametrajlı sənədli filmlər üçün ssenari müsabiqəsi elan edib. İttifaqın mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, yaşı 35-ə qədər olan bütün şəxslər ssenari müsabiqəsində iştirak edə bilərlər..

Şərtlərə görə hər bir müəllif 3 ssenaridən artıq təqdim edə bilməz. Birinci yerin sahibinə 1500, ikinciyə 1000, üçüncüyə isə 500 manat məbləğində pul mükafatı veriləcək. Ssenari müsabiqəsinin keçirilməsində məqsəd kinematoqrafiya sahəsində gənclərin yaradıcılıq fəaliyyətini inkişaf etdirmək, gənc və istedadlı müəllifləri aşkara çıxarmaq, həmçinin milli kinomuza yeni fikir, yeni nəfəs gətirməkdir. Ssenarilər oktyabrın 31-nə qədər təqdim edilməlidir

## Ailə, Qadın və Uşaq Məsələləri üzrə Dövlət Komitəsi Ermənistanın son təxribatı ilə əlaqədar bəyanat yayıb



Ailə, Qadın və Uşaq Məsələləri üzrə Dövlət Komitəsi Ermənistanın son təxribatı ilə əlaqədar bəyanat yayıb. Dövlət Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a daxil olan bəyanatın mətnində deyilir ki, 1994-cü ildən atəşkəs rejiminin elan olunmasına baxmayaraq, bu müddət ərzində Ermənistan dəfələrlə Azərbaycanın mülki əhalisinə və mülki obyektlərinə birbaşa və qəsdən hücum edib, qadınları, uşaqları amansızlıqla qətlə yetiriblər. Ötən dövrdə 33 uşaq erməni terrorunun qurbanı olub. Onlardan on dördü həlak olub, on doqquzu isə yaralanıb. Çox təəssüflər olsun ki, bu gün həmin uşaqların sırasına yaralanan Ramil Yusifov da əlavə olundu. Belə ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Tovuz rayonunun Qaralar kəndinin mülki əhalisini atəşə tutması nəticəsində 2004-cü il təvəllüdlü Yusifov Ramil Sabir oğlu ağır yaralanıb. Bu, bir daha vandalizm aktı olaraq Ermənistan dövlətinin terrorçu mahiyyətini sübut edir.

“Biz növbəti dəfə hüquqi normalara riayət edilməsi, beynəlxalq sülhün və təhlükəsizliyin müdafiə edilməsi, Birləşmiş Millətlər Təşkilatının qətnamələrinə, Avropa Şurasının, ATƏT-in, digər beynəlxalq təşkilatların qəbul etdikləri sənədlərə əməl edilməsi və Ermənistanın işğalçı siyasətinin dayandırılması üçün beynəlxalq təşkilatlara və dünya ölkələrinə müraciət edirik. Biz bir daha dünya ictimaiyyətinin bu hərbi münaqişənin ədalətli həllinə diqqət yetirmələrini tələb edirik”, - deyə açıqlamada bildirilir.

# Nazirlik isti hava şəraiti ilə bağlı sahibkarlara xəbərdarlıq edib

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti işəgötürənlərə müraciət edərək bildirir ki, yay mövsümündə kəskin isti hava şəraitinin mövcud olduğu vaxtlarda işçilərin həyat və sağlamlığının qorunması üçün qanunvericiliyin tələblərinə əsasən zəruri tədbirlər görülməlidir.***

Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elman Babayev AZƏRTAC-a bildirib. O qeyd edib ki, Əmək Məcəlləsinin 233-cü maddəsinə uyğun olaraq, havanın temperaturu + 41 dərəcə selsidən çox olduğu hallarda açıq havada və sərinləşdirici qurğular olmayan örtülü binalarda, otaqlarda və digər iş yerlərində bütün növ işlərin görülməsi dayandırılmalıdır: “Belə hallarda işçilərin həyat və sağlamlığının mühafizəsi məqsədi ilə onlara sərinləşmək üçün imkan yaradılmaqla fasilələr verilməli və işəgötürənlə həmkarlar təşkilatının birgə qərarı əsasında fasilənin sayı, müddəti müəyyən olunmalı, eyni zamanda, iş zamanı verilmiş fasilələr iş vaxtına daxil edilməlidir. Həmin fasilələr zamanı əməkhaqqı işçilərin tarif maaşına görə ödənilməlidir. İş dayandırıldıqda boşdayanma vaxtının haqqının işçinin təqsiri üzündən baş verməyən boşdayanma kimi, tarif maaşının üçdə iki hissəsindən az olmayaraq ödənilməsi təmin edilməlidir”.




E.Babayev qeyd edib ki, havanın temperaturunun + 41 dərəcə selsidən çox olduğu hallarda, açıq havada işlən vətəndaşların həyat və sağlamlığının qorunması əsas şərtdir: “Qeyd olunan hava şəraiti müşahidə olunana günlərdə, açıq havada işləməyə məcbur edilən şəxslər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət edə bilər. Hər bir vətəndaş nazirliyin 142 - “Çağrı mərkəzi”nə şikayətini deyə bilər. “Çağrı mərkəzi” canlı rejimdə həftənin iş günləri saat 9.00-dan 18.00-dək vətəndaşların xidmətindədir”.

# Xəyalpərəst ermənilər türkmən qazının "izində" - Berdımuhammedovun Bakı səfəri Ermənistanda ciddi suallar yaradıb

***Türkmənistanın prezidenti Qurbanqulu Berdımuhammedovun rəsmi Bakı səfəri Ermənistanda ciddi suallar doğurmağa başlayıb. Ekspertlər də vurğulayırlar ki, Türkmənistan prezidenti ölkə rəhbərimizlə qaz tranziti barədə fikir mübadiləsi aparmaq niyyətindədir. Belə ki, türkmən dövlət başçısının Prezident İlham Əliyevlə ikitərəfli görüşü Ermənistanın son dövrlər İran qazının öz sərhədləri daxilindən Avropaya tranzit olunması planlarına ciddi maneələr yarada bilər.***



## Erməni analitiklərinin reallaşmayan fərziyyələri

Daha dəqiq desək, ermənilərin "Iragir.am" saytının analitik bölməsində siyasi şərhçi Naira Ayrumyanın fikirlərindən də görünür ki, Serj Sarkisyanın İrana səfəri zamanı İran prezident Ruhani ilə apardığı danışıqlarında türkmən qazının İrandan keçərək, Ermənistan üzərindən Avropaya tranzit qismində keçirilməsi ətrafında fikirlər irəli sürülüb. O cümlədən, İran qazının da Avropa nəqli söhbətin mövzularından olub. Lakin bütün bunlar erməni tərəfinin hələ ki, hətta bundan sonra da reallaşdıra bilməyəcəyi fərziyyələridir.

Məsələ həm də ondadır ki, Azərbaycan istər siyasi, istərsə də iqtisadi siyasətində, Ermənistandan fərqli olaraq, kimsədən asılı olmayan müstəqil dövlətdir və həyata keçirdiyi bütün layihələri beynəlxalq aləmdə dəstəklənir. O cümlədən, bu layihələrdə iştirak etməkdən ötrü Avropa ölkələri irəli sürülən şərtlərlə razılaşırlar.

## Naira Ayrumyan: "Türkmən qazı Avropaya Azərbaycan üzərindən Xəzər dənizinin dibi ilə də çatdırıla bilər"

Erməni analitiki isə öz yazısında Türkmənistanın bir neçə il qabaq Rusiyanın "Qazprom" şirkəti ilə əldə edilmiş razılaşmanı pozduğunu xatırladaraq yazır ki, həmin ərəfələrdə Rusiya türkmən qazını ucuz alıb, Avropaya baha qiymətə satırdı. "Rəsmi Aşqabadın Çinlə də müqavilələrinin mövcud olmasına baxmayaraq, bu ölkə Avropaya çıxış yolu axtarmaqdadır"-deyə Naira Ayrumyan yazır.

Ancaq buna rəğmən, analitik yazar erməniləri pəjmürdə edə biləcək digər amilə də toxunur. O, qeyd edir ki, türkmən qazı Avropaya Azərbaycan üzərindən Xəzər dənizinin dibi ilə də çatdırıla bilər. Erməniləri narahat edən məsələlərdən biri də, bu layihənin reallaşacağı halda, Rusiya və İranın qəti olmayan mövqe sərgiləmələridir. Yəni ermənilər, belə olan halda iki ölkənin hansı qərar verə biləcəyindən tamamilə xəbərsizdirlər. Çünki iqtisadi dividend əldə etmək üçün həm Rusiya, həm də İran müəyyən təkliflərlə çıxış edə bilərlər. Ona görə də, erməni analitiki özünə təskinlik verərək, tamamilə məntiqsiz sual ünvanlayır: "Rusiya və İran buna razı olmasa, Azərbaycan Türkmənistansız Gürcüstan və Türkiyə üzərindən keçməsi və Avropaya çatdırılması planlaşdırılan TAP kəmərini doldura biləcəkmi?"

Görünür, Naira Ayrumyanın sualları əsnasındakı xam xəyalları təmsil olunduğu vassal Ermənistan adlı ölkənin asılı siyasətinə uyub və o, Azərbaycanın müstəqil iqtisadi siyasət yürütdüyünü unudub...

## Maraqlıdır, ehtimal, ya da zənn nə zamandan reallıq, yaxud da qəti fikirlərə əsaslanıb?

Daha bir məntiqsizlik Türkmənistanın öz qazının Azərbaycana çatdırılması üçün İran üzərindən nəqli ilə bağlı irəli sürülən fikirlə bağlıdır. Erməni analitiki əlində heç bir əsas, heç bir müqavilə və razılaşma sənədi olmadan özü-özündən ermənilərə sərf edən qərar çıxararaq, iddia edir ki, guya "İran türkmən qazının Azərbaycana tranzit olunmasının təmin olunmasından imtina edir və türkmən qazının Ermənistan üzərindən Avropaya çatdırılması planını dəstəkləyir və s. Naira Ayrumyana görə, bu barədə iki dövlət başçısının arasında danışıqların aparılması ehtimal olunur (?!-R.N.). Maraqlıdır, ehtimal, ya da zənn nə zamandan reallıq, yaxud da qəti fikirlərə əsaslanıb? Hər halda, erməni analitiki bu məsələdə də, özünə və erməni xalqına təskinlik verməklə məşğul olub.

## Erməni analitiki unudub ki, əgər Türkmənistan prezidenti Qurbanqulu Berdımuhammedovun istər siyasi iradəsi, istərsə də iqtisadi maraqları olmasaydı, o rəsmi Bakı səfərini reallaşdırmazdı

Son olaraq isə erməni icitmai rəyinin çaşqınlığına səbəb olan rəsmi statistikanı nümunə kimi göstərə bilərik. Məsələn, rəsmi xəbərə istinad edən Ayrumyan yazır: "Müzakirələr Ermənistan və İran ərazilərində Fars körfəzi və Qara dəniz nəqliyyat -tranzit yollarının mühümlüyü ətrafında aparılıb. Həmçinin, İran-Ermənistan-Türkmənistan üçtərəfli formatının əməkdaşlıq inkişafının vacibliyi barədə vurğulanıb".

Beləliklə, yalnız ehtimallar üzərində fikir yürüdən erməni analitiki unudub ki, əgər Türkmənistan prezidenti Qurbanqulu Berdımuhammedovun istər siyasi iradəsi, istərsə də iqtisadi maraqları olmasaydı, o, rəsmi Bakı səfərini reallaşdırmazdı. Əgər reallaşdırıbsa, demək, o, Azərbaycan Prezidenti İlham Əliyevin digər ölkələrin dövlət başçılarından fərqli olaraq, bilavasitə etibarlı tərəfdaş, qətiyyətli siyasətçi və strateji partnyor olması faktını doğru şəkildə qiymətləndirib. Məhz bu dəyərləndirmənin nəticəsidir ki, indi ermənilər özləri-özlərinə cavabsız suallar verirlər və ümidlərini yenə də başqa ölkələrin yardımlarına dikirlər.

***Rövşən NURƏDDİNOĞLU***



# Əli Kərimli- milli mənafenin bir nömrəli xəyanətkarı

RƏFİQƏ

***Zaman-zaman Xalq Cəbhəsi Partiyasının sədri Ə.Kərimlinin əxlaqa və mənəviyyata sığmayan siyasəti hər zaman müşahidə olunub. Bu fərdin işi-gücü ictimai rəydə özünəxas iyrənc obraz yaratmaq olub ki, normal düşüncəli ictimaiyyət daim belə addımı pisləyib. Ancaq xəyanətkarlıq imicinə sadiq qalan Ə.Kərimli indi də növbəti prezident seçkisi ərəfəsi şəhidlər üzərində mənfur, əxlaq və mənəviyyata sığmayan siyasət yürütməyə başlayıb. Bu fərdin işi-gücü ictimai rəydə özünə xas iyrənc obraz yaratmaq olub ki, normal düşüncəli ictimaiyyət daim belə addımı pisləyib. Söz yox ki, bu cür əxlaqsızlıqlara əl atan partiya sədrindən heç bir humanizm və insanpərvərlik gözləməyə dəyməz... Çünki bu gün Ə.Kərimli kimi antimilli, dağıdıcı müxalifət liderləri problemlərini öz maraqlarına uyğun şəkildə qabartmaqla, siyasiləşdirməklə həm ictimaiyyət arasında çaşqınlıq yaratmağa, həm bu kateqoriyadan olan insanlarla dövlət arasındakı münasibətlərə kölgə salmağa, həm də sosiumda Qarabağ müharibəsi ilə bağlı fikirlərə mənfi psixoloji nöqteyi-nəzərdən qiymətin verilməsinə cəhd göstərirlər. Düşünürəm ki, bu gün heç kəs susmamalıdır. Qarabağ müharibəsi əlillərinin, şəhid ailələrinin adından danışan Ə.Kərimli kimi antimilli ünsürün səsini birdəfəlik kəsmək lazımdır.***

## Kərimlinin süni imici

Məsələ ondadır ki, Ə.Kərimli yenə də seçkiərəfəsi süni şəkildə yaradılmış bir imic üzərində əxlaqsız siyasətini işə salıb. Məqsədi də dövlətin öz şəhidlərinə, şəhid ailələrinə göstərdiyi diqqət və qayğısına kölgə salmağa çalışan bəzi üzdəniraq qüvvələr üçün "ələkçinin qılverəni" vəzifəsini icra etməkdir. Ancaq Ə.Kərimli anlamır ki, belə ürəkbulandırıcı siyasəti yürütməklə müxalifətin "lideri" olmaq olmaz. Çünki bu məxluqun yazı dağarcıqları onun sifarişinə əsasən yazılır. Elə ötən il aprel döyüşləri zamanı Ə.Kərimlinin yazı dağarcıqları yazırdılar ki, guya şəhidlərin siyahısı gizlədilir, dövlət adamları şəhidlərin mərasimlərinə qatılmır və s. Amma sonradan bütün bunların şər, böhtan və yalan olduğu üzə çıxdı. Amma Ə.Kərimli yalanının üzə çıxmasından heç də utanmadı!

Şəhidlərin dəfn mərasimlərində minlərlə insan iştirak edirdi. Onlar da gördülər ki, mərasimlərə kimlər qatıldı - dövlət nümayəndələri, siyasi xadimlər və tanınmışlar! Belə yerdə, əslində, heç bir vəzifə və titul olmur. Hər kəs eyni titulu daşıyır - xalq titulunu! Görünür, Ə.Kərimlinin bu titula heç vaxt aidiyyəti olmayıb, heç olmayacaq da. Çünki milli mənafenin bir nömrəli xəyanətkarı olan Ə.Kərimlidən, ən azından, xalqımız təmizlənmiş olar!

# "ASAN peşə" layihəsi üzrə sənəd qəbulu davam edir

***2017-2018-ci tədris ili üzrə "ASAN peşə" layihəsi çərçivəsində ilk peşə-ixtisas təhsili müəssisələrinə sənəd qəbulu davam edir. Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, ilk peşə-ixtisas təhsili müəssisələrinə ərizə qəbulu "ASAN xidmət" mərkəzlərinin və müvafiq təhsil müəssisələrinin sənəd qəbulu komissiyalarında ödənişsiz formada həyata keçirilir. Ərizə qəbulu üçün şəxsiyyət vəsiqəsi və təhsil haqqında sənəd (şəhadətnamə və ya attestat) tələb olunur.***

Bakı və Gəncədə yerləşən dövlət ilk peşə-ixtisas təhsili müəssisələrinə həm dövlət, həm də ödənişli əsaslarla qəbul "ASAN xidmət" tərəfindən aparılır. Sumqayıt, Abşeron, Bərdə, Masallı, Sabirabad və Qəbələ üzrə dövlət hesabına şagird qəbulu yalnız "ASAN xidmət" mərkəzlərində aparılır. Ödənişli əsaslarla şagird qəbulu həmin təhsil müəssisələri tərəfindən həyata keçirilir. "ASAN xidmət" mərkəzlərinin fəaliyyət göstərmədiyi şəhər və rayonlarda yerləşən dövlət ilk peşə-ixtisas təhsili müəssisələrinə sənəd vermək istəyən şəxslər istənilən "ASAN xidmət"ə və müvafiq təhsil müəssisələrinə müraciət edə bilərlər. İlk peşə-ixtisas təhsili müəssisələrinə sənəd vermiş şəxslər on ixtisas seçmək hüququna malikdir. Şagird qəbulu şəhadətnamə və attestat üzrə müvafiq fənlərin orta balı nəzərə alınmaqla həyata keçirilir. İlk peşə-ixtisas təhsili müəssisələrində təhsil müddəti altıaylıq, birillik, ikiillik və üçillik təhsil proqramları əsasında təşkil olunur. Təhsil müddəti üçillik olan proqramlar üzrə seçimdə yalnız son iki ildə ümumi orta təhsil səviyyəsini bitirən və tam orta təhsil almaq istəyən şəxslər iştirak edə bilərlər. Ümumi orta təhsil səviyyəsini bitirənlər, eyni zamanda, təhsil müddəti birillik və ya iki illik proqramlar üzrə də seçimdə iştirak edə bilərlər. Sənəd qəbulu avqustun 22-dək davam edəcək.



# Yalnız Henrix Mxitaryanın reytinqi 80% ola bilər, baş nazir Karen Karapetyanda isə, əsla!

*Erməni sosioloqu "MPC" sorğu şirkətinin direktoru Aram Navasardyanın keçirdiyi sorğusunu belə ələ saldı*



***Ermənistanda zaman-zaman hakimiyyət-yönlü sosial mərkəzlərin keçirdikləri sorğuları nəticəsində şişirdilmiş rəqəmlərin göstərilməsi istehza hədəfinə çevrilir. Belə ki, bu dəfə baş nazir Karen Karapetyanın reytinqi ilə bağlı sorğu keçirən mərkəzlərdən biri erməni sosioloqu Karen Sarqsyanın hədəfinə tuş gəlib. O, yoxsul, ac və səfil bir ölkədə bənzər sorğuların keçirilməsinin, ümumiyyətlə, doğru addım olmadığını deyib.***

"Rəsmi rəqəmlərə görə, yoxsulluğun 30%-lik həddi aşdığı Ermənistan kimi, kasıb ölkənin baş naziri heç vaxt 80% reytinq toplaya bilməz, yalnız reytinqin düşməsi təbii görünə bilər". Bu haqda Ermənistanın "Birinci informasiya" (1in.am) saytına sosioloq Karen Sarqsyan "MPC" ("Gallup International Association"un tam hüquqlu üzvü) şirkətinin direktoru Aram Navasardyanın parlament seçkilərindən sonrakı müddətdə keçirdiyi sorğuda baş nazir Karen Karapetyanın reytinqinin 10% azalması ilə bağlı nəticələrini şərh edərkən deyib.

## "Belə bir insan olsa belə, gərək bizim dünyanın adamı olmaya..."

Karen Sarqsyana görə, keçirilən sorğuda baş nazirin reytinqinin aşağıya düşməsini belə əsaslandırmaq olar ki, onun seçkilər öncəsi verdiyi vədlərinin heç biri yerinə yetirilməyib, məhz bu amil də Karapetyanın nəticə olaraq, siyasi nüfuzunun itirilməsinə səbəb olub. O, sual edərək soruşub: sizə elə gələ bilərmi, cəmiyyətdə elə bir insan olsun ki, seçki öncəsi vədlərə inansın? "Belə bir insan olsa belə, gərək bizim dünyanın adamı olmaya ki, seçki öncəsi seçkilərə inana bilsin"-deyə erməni sosioloq bildirib. SİTAT: "Seçkilər ərəfəsində baş nazir yeni sima idi, və o, yeni vədlər verdiyinə görə seçilmədi, ona görə seçildi ki, yeni insan idi, ona münasibətdə simpatiya yaranmışdı".

## "Burada ciddi problemlər yaranıb, onlardan biri və birincisi isə korrupsiyadır"

Sosioloq hesab edir ki, normal cəmiyyətdə ən populyar siyasi xadimin reytinqi 20%-i keçirsə, deməli, həmin cəmiyyət qeyri-sağlamdır. Sarqsyana görə, normal cəmiyyət siyasətlə maraqlanmalı deyil. Belə ki, ideal hökumət elə olmalıdır ki, xalq arasında nəzərə çarpmasın: "İdeal hakimiyyət prosesləri elə təşkil etməlidir ki, proseslər özü-özlüyündə inkişaf etsin, insanlar rahat şəkildə istirahətə, dincəlməyə getsinlər, geri döndükdə isə əmək haqlarını, pensiyalarını vaxtlı-vaxtında alsınlar. Ancaq nə vaxt ki, insanlar hökumətin fəaliyyəti ətrafında, qəbul etdikləri qərarlarla bağlı maraqlanmağa başlayırlarsa, deməli, burada ciddi problemlər yaranıb, onlardan biri və birincisi isə korrupsiyadır".

Karen Sarqsyan sonda digər bir maraqlı məqama toxunaraq, bildirib ki, yalnız İngiltərə premyer-liqasında oynayan erməni futbolçu Henrix Mxitaryanın reytinqi Ermənistanda 80% ola bilər, baş nazir isə, bu reytinqə layiq deyil.

Beləliklə, görünən budur ki, erməni cəmiyyəti artıq sorğuların da saxtalaşdırıldığının fərqinə varıblar. Sadəcə, bir qığılcım kifayətdir ki, Serj Sarkisyan hakimiyyətinin kökünü "qazısın"...

***Rövşən NURƏDDİNOĞLU***

## Sorğu: Trampın populyarlıq reytinqi yeni minimuma çatıb



ABŞ Prezidenti Donald Trampın populyarlıq reytinqi onun bu ilin yanvar ayında baş tutan inauqurasiyasından indiyədək ən aşağı göstəriciyə düşüb. Bu barədə məlumat SSRS xidmətinin CNN telekanalının sifarişi ilə keçirdiyi sorğunun nəticələrində də öz əksini tapıb.

AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, respondentlərin 38 faizi Trampın prezident postundakı fəaliyyətini müsbət qiymətləndirib. Aprel ayında bu göstərici 44 faizə, martda 45 faizə, fevralda isə 44 faizə çatırdı.

Sorğuya əsasən prezidentin işindən narazı qalan vətəndaşların sayı 56 faiz olub. Aprel, mart və fevral aylarında isə onların sayı müvafiq olaraq 54 faiz, 52, faiz və 53 faiz təşkil edib. Prezidentə dəstək verənlərin demək olar ki, hamısı Respublikaçılar Partiyasının tərəfdarı, onu tənqid edənlərin əksəriyyəti isə demokratlardır. SSRS xidmətinin sorğusunda iştirak edən vətəndaşların 36 faizi Trampın etibarlı şəxs olubolmaması sualına müsbət, 60 faizi isə mənfi cavab verib. Prezidentin xarici siyasət sahəsində verdiyi qərarlar vətəndaşların 35 faizini qane edib, respondentlərin 61 faizi isə əks mövqedə dayanıb. Qeyd edək ki, 3-6 avqust tarixlərində keçirilən sorğuda bütün ölkə üzrə 1018 amerikalı iştirak edib.

## Finlandiyalı qadına Putinin səfəri ilə bağlı gizli məktub gəlib

Finlandiyanın Oulu şəhər sakini olan qadın yanlışlıqla Rusiya lideri Vladimir Putinin səfəri ilə bağlı gizli məktub alıb. Axar.az xəbər verir ki, polislər arasında olan email yazışmaları səhvən həmin qadının elektron poçt ünvanına gəlib. Həmin məktubda Putinin helikopterlə Savonlina Hava Limanına eniş vaxtı və Finlandiya Prezidenti Sauli Ninistonun da hərəkət marşrutu göstərilib. Şərqi Finlandiya polisinin sözçüsü Arto Tunkunen də olayı təsdiqləyib:

"Məktub bir vətəndaşın elektron poçt ünvanına gəlib. Bu hadisə Putinin helikopterinin enişindən 9 saat sonra baş verib. Yəni təhlükəsizliklə bağlı heç bir problem olmayıb. Məktub çatan an hər iki lider Olavvinlinada opera izləyirdi".

## Pakistanda partlayış olub, 34 nəfər yaralanıb

Pakistanın Lahor şəhərində baş verən partlayış nəticəsində 34 nəfər yaralanıb. APA-nın RİA Novosti agentliyinə istinadən verdiyi xəbərə görə, şəhərin qərb hissəsində yük maşını partlayıb. Hadisənin səbəbləri hələ ki, məlum deyil. İlkin versiyaya əsasən, yük maşını transformatora çırpıldıqdan sonra partlayış baş verib. Polis avtomobildə quraşdırılmış partlayıcı maddənin işə salındığını istisna etmir.

# Ermənistan-Rusiya münasibətləri: vassalın qaranlıq gələcəyi

*Sarkisyanın başqa çıxış yolu yoxdur*



Üzərindən 25 ildən çox müddət keçsə də, münaqişənin həllinin Rusiyadan asılı olduğu inkaredilməz faktdır. Bu 25 ildə Ermənistan-Rusiya münasibətləri heç bir zaman iki müstəqil dövlət arasındakı münasibətlər kimi olmayıb. Ermənistan siyasi, iqtisadi, hərbi və təhlükəsizlik baxımından Rusiyadan asılı vəziyyətdədir. Maraqlı odur ki, bu asılılıq hər keçən gün Ermənistanın əleyhinə artır. Beynəlxalq münasibətlər sistemində iki dövlət arasındakı münasibətlər qarşılıqlı asılılıq kimi dəyərləndirilir. Tərəflər özlərinin maraqlarını ortaq məxrəcə gətirərək, əməkdaşlıq edirlər. Ermənistan-Rusiya münasibətlərində isə maraqların ortaq məxrəcə gətirilməsindən söhbət belə gedə bilməz. Ermənistan 25 ildir Dağlıq Qarabağ və ətraf rayonları işğal altında saxlayır. Halbuki bu qondarma qurumu nə özünə birləşdirə, nə də müstəqilliyinin tanınmasına nail ola bilir. Dağlıq Qarabağ, sözün həqiqi mənasında, Ermənistanın kürəyində künküldür. Ermənistanın müalicə etməkdən imtina etdiyi o künkülü isə hər keçən il onun onurğa sütununu bir az daha əyir, bir az daha Rusiyaya doğru meyilli edir, bir az bu ölkədən asılılığı daha da artırır.

Ukraynanın təhlükəsizliyi və Strategiyanı Araşdırma Qrupunun rəhbəri, ukraynalı politoloq Serqey Qerasimçuk bildirib ki, Ermənistanın Rusiyanın vassalı olmaqdan başqa çıxış yolu yoxdur: "Ermənistanın özünü Rusiyadan tam asılı vəziyyətə salması o deməkdir ki, ölkənin təhlükəsizliyi yoxdur. Ermənistanın xarici siyasət kursunu kəskin şəkildə dəyişməsi böyük səhvdir. Əgər Ermənistan Avropa İttifaqı ilə saziş imzalasaydı, beynəlxalq ictimaiyyət ölkənin sabitliyində maraqlı olar, buraya investisiya yatırardı. Ermənistan isə Rusiyanın vassalı olmağı seçdi". Bu məsələni dəyərləndirən erməni ekspert İqor Muradyan "168 Jam" qəzetinə açıqlamasında bildirib ki, son proseslər Rusiyanın Azərbaycan vasitəsilə Ermənistana təzyiqləri artırdığını göstərir: "Son helikopter olayı da təsdiqləyir ki, Rusiya ilə Azərbaycanın maraqları üst-üstə düşür. Təmas xəttində baş verənlər göstərir ki, Azərbaycan konkret regional layihələrin icrasına başlamaqla bağlı həm Qərbə, həm də Rusiyaya mesaj verir. Ermənistan dövlət olaraq özünü qorumaq üçün konkret mobil proqramlar icra etməlidir. Amma biz görürük ki, şəxsən Putin Ermənistanı alçaltmaqla məşğuldur. Belə görünür ki, Rusiya qarşısına erməni xalqını və Ermənistanı alçaltmaq məqsədi qoyub. Kreml məcbur edir ki, Ermənistan özünün vassal və alçalmış statusunun qanuni olduğunu etiraf etsin".

## *Albert Baqdasaryan: "Azərbaycan Qarabağı tamamilə alacaq, Ermənistan isə yer üzündən yox olacaq"*

Ermənistanda "Qarabağ" komitəsinin üzvü Albert Baqdasaryan sözügedən məsələ ilə bağlı bildirib ki, dünyada heç bir ölkə Ermənistana tərəfdaş kimi baxmır və etibar etmir: "Ən yaxşı halda, bu gün Ermənistana Rusiyanın vassalı, "kukla ölkəsi" kimi baxırlar. Rusiya ermənilərin müttəfiqi deyil. Ermənistan hakimiyyəti isə, son zamanlar həyasızcasına hər şeyi etdi ki, ölkə atılmış olsun. Atılmış ölkə nə deməkdir? Yəni dünyada heç kim sənə partnyor kimi baxmır və etibar etmir. Ən yaxşı halda isə, Rusiyanın vassalı kimi baxacaqlar. Görünür, bizim hakimiyyət dövlətçilik siyasətini rəhbər tutmur. Misal üçün, müharibə gedirdi, amma onlar susurdular, Azərbaycanın nə qədər irəlilədiyini, nə qədər itki verdiyimizi açıqlamırdılar. Müharibənin dördüncü günü, eləcə də, əvvəlki və sonrakı günləri gördük ki, Ermənistanda xarici işlər naziri yoxdur. Edvard Nalbandyan adında Rusiya Dövlət Təhlükəsizlik Komitəsinin agenti var".

Erməni siyasətçi rəsmi Yerevanın Moskvanın "kuklası" olduğunu vurğulayıb: "Rusiya bizə nə iqtisadi, nə də hərbi yardım etmir. Sarkisyan Merkellə görüşdə etiraf etdi ki, biz 80-ci illərin silahları ilə döyüşürük. Hansı ki, bizə hər gün ordunun müasir silahlarla təchiz edildiyinə dair yalanlar danışırlar. Bu gün biz Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) və Avrasiya İqtisadi İttifaqının üzvüyük. Halbuki Ermənistana bu təşkilatların təsisçisi olmağa icazə verilmədi. Bu gün bizim eyni təşkilatda yer aldığımız ölkələr Ermənistana tərəfdaş deməyə utanırlar, üzümüzə tüpürürlər. Biz indi dilənçi vəziyyətindəyik".

Beləliklə, Ermənistan dövləti, hökuməti və vətəndaşları anlamalıdır ki, Azərbaycanın Dağlıq Qarabağa təklif etdiyi yüksək müxtariyyat statusu ilə razılaşıb münaqişəni həll etmədikləri müddətdə iqtisadi inkişafa və siyasi sabitliyə, təhlükəsizlik problemlərinin həllinə fürsət tapmayacaqlar. Ermənistan prezidenti Sarkisyan sağlam məntiqlə düşünməyə məcburdur, əgər düşünməyə qadirdisə, sadəcə, bundan başqa yolu qalmayıb.

***A.SƏMƏDOVA***

SİYASİ RAKURS

# AXCP-nin 2018-ci il planları-yenə xarici dairələr, yenə xəyanət!

*“Milli Şura”növbəti dəfə yeni tərkibdə köhnə cəhdlər edəcək...*

***2013-cü ilin prezident seçkilərindən əvvəl və sonra Rusiyanın qaranlıq siyasi dairələri və bu dairələrin əlaltısı olan “Milyarderlər İttifaqı” tərəfindən yaradılmış “Milli Şura” 2018-ci ildə keçirilməsi nəzərdə tutulan növbəti prezident seçkilərində də eyni motivdən yararlanmağı planlaşdırıb. Öncəki seçkilərdə ciddi siyasi uğursuzluğa düçar olmuş “Milli Şura”nın rəhbərliyində yer alan Cəmil Həsənli, eyni zamanda, onu özəl şəkildə idarə edən AXCP sədri Əli Kərimli “revanş” almaq məqsədilə bir daha həmin dairələr qarşısında müəyyən öhdəliklər götürməyə hazır olduqlarını gizlətmirlər.***

Hətta ağlagəlməz ehtimalların reallaşması imkanları da sözügedən planların tərkib hissəsində yer alıb. Bunu adlarının bəlli məsələlərə görə açıqlanmasını istəməyən kifayət qədər etibarlı mənbələr də etiraf edirlər.

## Yeni versiyada qurulacaq “Milli Şura”nın tərkibinin müəyyənləşdirilməsi üçün C.Həsənli və Ə.Kərimli ilə gizli danışıqlar aparıldığı bildirilir

Həmin etiraflardan biri uzun müddət idi ictimai-siyasi məkanda səsi-sorağı gəlməyən sabiq baş nazir Surət Hüseynovun, keçmiş müdafiə naziri Rəhim Qazıyevin, sabiq prezident



Ayaz Mütəllibovun və keçmiş baş nazirin müavini Abbas Abbasovun adlarının hallanmasıdır. İrəli sürülən və reallaşması mümkün olan variantlardan biri də budur ki, həmin Rusiyameyilli tərəflər bir araya gələrək, “Milli Şura”da bu və ya digər şəkildə təmsil olunsunlar. Hətta yeni versiyada qurulacaq “Milli Şura”nın tərkibinin müəyyənləşdirilməsi üçün C.Həsənli və Ə.Kərimli ilə gizli danışıqlar aparıldığı bildirilir. Əlbəttə, bütün bunların heç də elə-belə havadan yaranmadığı, şərtlərin, təkliflərin müəyyən öhdəliklər və vədlər qarşılığında qəbul olunması faktdır.

## Məqsəd Azərbaycan dövlətçiliyinin təməlini sarsıtmaq, xarici siyasi dairələrin regionda söz sahibinə çevrilmələri üçün 2018-ci il seçkilərində maksimal dərəcədə aranı qarışdırmaqdır

Maraqlı məqam isə sövdələşmələrdə AXCP sədri Ə.Kərimlinin yer almasıdır. Bəllidir ki, Ə.Kərimli AXC hakimiyyəti zamanı yüksək vəzifədə olarkən, adları çəkilən hər üç şəxslə düşmənçilik münasibətlərində olub və bu dəfə onun həmin şəxslərlə bir araya gəlməsi bir çoxlarında təəccüb doğurur. Halbuki burada heç də təəccüblü bir şey yoxdur. Məqsəd Azərbaycan dövlətçiliyinin təməlini sarsıtmaq, xarici siyasi dairələrin regionda söz sahibinə çevrilmələri üçün 2018-ci il seçkilərində maksimal dərəcədə aranı qarışdırmaqdır. Bunun üçün isə Ə.Kərimli - C.Həsənli cütlüyündən də münbit siyasi ikilik tapmaq Rusiyanın qaranlıq siyasi dairələri üçün çətin idi. Ona görə də, məhz onlar bu sövdələşmədə “söz sahibi” olaraq qəbul edildilər və sonradan yuxarıda qeyd edilən planlar barədə məlumatlar verildi. Əlbəttə, belə təkliflərdən vaz keçmək həm Ə.Kərimli, həm də C.Həsənli üçün axmaqlıq olardı. Çünki məqsəd siyasi maraqlar üzərindən daha çox maddi vəsait qazanmaqdır.

Beləliklə, “Milli Şura”nın yeni versiyada və yeni sifətlərlə doldurulması təklifinin reallaşdırılmasında əsas koordinator qismində AXCP sədri Ə.Kərimli seçilib və onun A.Mütəllibovla, S.Hüseynovla, R.Qazıyevlə və A.Abbasovla razılaşması baş tutarsa, 2018-ci ildə fəaliyyəti dəyişməyən, ancaq sifətlər baxımından fərqli “Milli Şura” görəcəyik. Məhz bu səbəbdən, Ə.Kərimlinin adı son aylarda Rusiyapərəst qüvvələrlə birgə hallandırılır, hətta onun sosial şəbəkələrdəki qrupları zamanzaman Qərb siyasətini pisləyən statuslar paylaşır, Rusiya ilə yaxın qonşuluq prinsiplərindən fikirlər yazırlar. Bu faktor isə, AXCP sədrinin “koordinator” olaraq, yeni vəzifəyə təyin olunmasını sübuta yetirmiş olur.

**Rövşən NURƏDDİNOĞLU**

# Zaman müxalifətin əleyhinə işləyir

***Acı təəssüf hissi ilə qeyd etmək lazımdır ki, zaman-zaman Azərbaycanın əldə etdiyi uğurlara “sapı özümüzdən olan baltalar” zərbə vurmağa çalışıblar. Xüsusilə də, Azərbaycanın dünya miqyasında yerinin və rolunun möhkəmlənməsi, qlobal maliyyə böhranına baxmayaraq, iqtisadi uğurlara, maliyyə sabitliyinə nail olması və bütün bunların fonunda əhalinin yaşayış durumunun ən yüksək səviyyədə təmin olunması bir növ xarici qüvvələri və onlarla eyni maraqları bölüşən dağıdıcı müxalif qüvvələri ciddi narahat edir.***



Bu baxımdan, məkrli qüvvələr birgə pozucu plan qurmaqla ölkəmizin uğurlarına kölgə salmağa, ən azı inkişaf tempini aşağı salmağa cəhd göstərirlər. Müxtəlif mini aksiyaların, piketlərin keçirilməsi, boş və mənasız bəyanatların səsləndirilməsi, populist çağırışlarla çıxış edilməsi, məhz pozucu planların tərkib hissəsidir.

AXCP və Müsavat funksionerlərinin müxtəlif xarici dairələrlə işbirliyində olmaları və onların sifarişlərinə uyğun olaraq, İsmayıllı rayonunda, Nardaran qəsəbəsində və bundan əvvəl Şəki şəhərində terrora xas aksiyalar planlaşdırmağa cəhd etmələri yuxarıda qeyd olunan planların əməli göstəricisi sayıla bilər. 2018-ci ildə keçirilməsi nəzərdə tutulan prezident seçkilərinin yaxınlaşması dağıdıcı qüvvələri daha fəal və “mütəşəkkil” olmağa həvəsləndirib. Onları bu həvəsə “SOROS”, “Fredoom Hous” kimi təşkilatların seçkilərə hazırlıqla bağlı ayırdıqları maliyyə yardımları da məcbur edir. Yəni dağıdıcı müxalifət istəməsə də, pul qarşılığında xarici qüvvələrin tapşırıqları önündə baş əyməyə məhkumdur.

## Rusiyameyilli qüvvələr AXCP və Müsavatı qəbul etmirlər

Son günlər Rusiyameyilli qüvvələrin fəallaşmaları da səbəbsiz görünə bilməz. Necə ola bilər ki, uzun illər kölgəyə çəkilən, qınında gizlənən Surət Hüseynov, Abbas Abbasov, Rəhim Qazıyev və digərləri peyda olaraq, siyasi xal qazanmaq üçün müəyyən açıqlamalarla çıxış edirlər. R.Qazıyevin Laçın və Kəlbəcərin ermənilər tərəfindən işğalında Əbülfəz Elçibəy hakimiyyətini günahlandırması, keçmiş baş nazir S.Hüseynovun AXC-Müsavat iqtidarına qarşı sərt ittihamlarla çıxış etməsi, onu deməyə əsas verir ki, Rusiyameyilli qüvvələrlə dağıdıcı müxalif partiyaları AXCP və Müsavatla eyni maraqları bölüşmürlər. Bu isə tərəflər arasında toqquşmaların yaranmasına gətirib çıxarır. Daha doğrusu, artıq fakt budur ki, Rusiyameyilli qüvvələrlə müxalifət yetkililəri arasında bir-birinə qarşı yönələn kəskin ittihamlar səslənməkdədir. Hər gün bir neçə qəzet və saytlarda tərəflərin bir-birinə ünvanlanan hədələrinə və ittihamlarına rast gəlmək olur. Bütün bunlar cəmiyyət üçün maraqsız olsa da, tarixin tör-töküntüləri olan simalar bunun fərqində deyillər. Onlar üçün əsas şərt ağalarının verdikləri tapşırıqlardır. Yəni cəmiyyətin ilkin fikrini öyrənmək üçün ortaya əhəmiyyətsiz hesab olunan mövzular atırlar. Amma fakt budur ki, tərəflərin nə düşünmələrindən və ortaya hansı səpkili mövzu atmalarından asılı olmayaraq, Azərbaycan ictimaiyyəti onları qətiyyətlə rədd edir. Bir də reallıq odur ki, tarixin zibilliyinə atılanların peyda olub sağlam mübarizə fəaliyyətinə qoşulmaları mümkün deyil. Bunu kim də olmasa, tərəflər anlamalıdırlar.

**İ.ƏLİYEV**

# “Emin Millinin çalışdığı “Meydan” TV yox, “Şeytan” TV-dir”

*Elşən Musayev: “Rəzalət” anlayışının özü bunlardan bezib, amma bunlar rəzil olmaqdan bezməyiblər “*



Müsahibimiz Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayevdir

***- Elşən müəllim, son günlər AXCP, Müsavat və onların təsiri altında olan qəzetlər, saytlar dövlətimizin imicinə ləkə vurmaq, xalqın milli ruhunu sarsıtmaq üçün geniş əks-təbliğat kampaniyasına başlayıblar. Bu cür təbliğatın arxasında hansısa xarici qüvvələrin dayandığını demək olarmı?***

- Ümumən Azərbaycanın uğurları həmişə müəyyən və məlum qüvvələri narahat edib. Daxildə də, xaricdə də. AXCP və Müsavat isə ölkə müxalifətinin üz qarasıdır. “Rəzalət” anlayışının özü bunlardan bezib, amma bunlar rəzil olmaqdan bezməyiblər. Davamlı şəkildə, sanki ömürlərinin sonuna qədər rəzil olmağı qarşılarına məqsəd qoyublar. Belə olan halda isə, bu cür ünsürlərdən hər şey gözləmək olar. Təbii ki, hansısa xarici qüvvələr Azərbaycanın radikal müxalifətinə pul yatırır, onların vasitəsilə aranı qatmağa çalışır. Amma çıfayda, alınmayacaq. Ona görə alınmayacaq ki, xalq öz Lideri, Prezident İlham Əliyevin yanındadır, xalq Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan uğurlu strategiyanın davam etdirilməsində maraqlıdır.

***- Emin Milli adlı “Meydan” TV-nin təsisçisi ermənilərlə geniş əməkdaşlıq əlaqələri qurur və bu əlaqələrin qurulmasında Əli Kərimlinin və Arif Hacılının müəyyən tövsiyələrindən yararlandığını gizlətmir. Bununla bağlı nə deyə bilərsiniz?***

- Emin Millinin çalışdığı “Meydan” TV yox, “Şeytan” TV-dir. Bu TV qarayaxmalar üzrə Olimpiya Oyunları, dünya çempionatı keçirilərsə, heç şübhəsiz, lider olardı. Ağızlarını açıblar, nə gəldi danışırlar. Odur ki, beləlerinin erməni dostları ilə əlaqələr qurması da kimsəni heyrətləndirməməlidir. Emin Millinin özü ermənidən heç nə ilə fərqlənməyən biridir. Əli Kərimli kimi “lider”lər isə, Emin Millinin bu kontekstdə, bu yolda ruh və stimul aldığı adamlardır.

***- Əli Kərimli ilə eyni maraqları bölüşən Leyla və Arif Yunusların Praqada mənzilləri, İstanbulda obyektləri olduğu öz təsdiqini tapır. Sizcə, bu cür geniş imkanlar nəyin hesabına əldə olunub?***

- Dələduzluq və siyasi oyunbazlıq hesabına. Başqa nə ilə olacaq ki? Alırlar qrantları, bütün öhdəlikləri icra edirlər. Təbii ki, Azərbaycan əleyhinə. Ona görə vicdanları və şəxsiyyətləri olmasa da, pulları yetərincədir.

***- 2018-ci ildə keçiriləcək prezident seçkilərinin yaxınlaşması müxalifətin bir qədər fəallaşdığını göstərir. Necə düşünürsünüz, müxalifət diqqət mərkəzinə çevrilmək üçün qarşıdurmalar və iğtişaşlar yarada bilərmi?***

- Heç bir fəallıq-filan yoxdur. Hamısı imitasiyadır. Sadəcə, göstərmək, sübut etmək istəyirlər ki, biz də varıq. Reallıqda isə onların tozu belə yoxdur, çoxdan tarixin arxivinə gömülüblər. Azərbaycanın radikal müxalifət cəbhəsində özündən deyən, özündən bəhs etdirməyi bacaran, sözünə sahib çıxan insan uzun illərdir yetişmir. Çünki strategiyaları satqınlıq və riyakarlıq üzərində qurulub. Həmin cəbhədə yetərincə satqın var. Satqın olmayanlar isə sıravilərdir, qabağa, önə çıxa bilməyiblər. Əli Kərimli kimi tiplər öz iyrənc məqsədləri üçün müxalifətçiliyi də monopoliyada saxlayırlar. İmkan vermirlər ki, normal müxalifət formalaşsın. İndiki məqamda özlərini müxalifət adlandıranlar, ortalıqda gəzib, su bulandıranlar isə, əsla, mövcud iqtidara rəqib ola bilməzlər.

**GÜLYANƏ**

# Azərbaycan dövlətçiliyində milli lider fenomeni

***Azərbaycan dövlətçiliyinin inkişafında Ulu Öndər Heydər Əliyev Ümummilli Lider səviyyəsinə yüksələn fenomenal, dahi bir şəxsiyyətdir. Bunu dünyanın ən məşhur siyasətçiləri də etiraf edirlər.***

Süleyman Dəmirəl Ümummilli Liderimiz haqqında deyir: "Hörmətli Heydər Əliyev dünyada tanınan adamdır. Hansı qapını döysə, o qapı açılır. İstədiyi zaman Şirakla, istədiyi zaman Buşla, istədiyi zaman istədiyi kişi ilə danışır. Azərbaycan dövlətini dünyada etibarlı şəkildə təmsil etməkdədir".

Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanda "vətəndaş birliyi, ölkənin sürətli sosial-iqtisadi inkişafı, sahibkarlığın inkişafına əlverişli şərait yaradılması, insan hüquq və azadlıqlarının təminatı, milli maraq və mənafe, dövlətin və xalqın təhlükəsizliyi, hərbi qüdrət, tərəqqi, düzlük və halal" kimi anlayışlar, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli dövlətimizin ali məqsədi kimi önə çəkilirdi. Onun oğlunun hakimiyyətində də bu ali prinsiplərə üslünlük verilməsi bir az fərqli çalarlarla açıq-aydın görünür. Fərq yalnız ondadır ki, İlham Əliyev atadan miras qalan ənənələrə - Heydər Əliyevin müəllifliyi ilə yaradılan bitkin xarici konstruksiyaya, dost-düşmən ayırd edən Milli Təhlükəsizlik Konsepsiyasına, onun tərkib hissəsi olan hərbi doktrinaya, iqtisadi konstruksiyaya... Özünəməxsus, yeni müasir şəraitə uyğun çalarlar gətirməkdədir. Bu yeniliklərdən yeni güc alan Azərbaycan dövləti regionda və dünyada gedən proseslərlə ayaqlaşa, yeni və köhnə qlobal təhlükələrə effektli reaksiya verə bilir. Dövlət idarəçiliyində sərt metodların əleyhinə olan, fəaliyyətində humanizm və ədalət prinsiplərini üstün tutan, insan hüquq və azadlıqlarına hörmət və ehtiram göstərən, milli maraqlarımıza xarici təhdidləri aradan qaldıran, ölkəmizin geostrateji və geosiyasi yönünü tam inkişaf etdirən Ümummilli Liderimiz Heydər Əliyev oldu.

M.Əlizadə dahi şəxsiyyət Heydər Əliyevin Ümummilli Liderliyini belə səciyyələndirir: "Gözümüzün önündə siyasi fəlsəfənin tarixi köklərini bütün incəlikləri ilə qavrayaraq dərrakəsində siyasi məktəb yaradan, hər bir incə məsələyə münasibətdə siyasi məsuliyyəti tam qavrayaraq, onu diqqətindən yayındırmayan Heydər Əlirza oğlu Əliyevi misal göstərə bilərik".

Heydər Əliyev Azərbaycan Respublikasında:

1. Güclü dövlət yaratdı;
2. Milli təhlükəsizliyi təmin etdi;
3. İqtisadiyyatı inkişaf etdirdi;
4. Qüdrətli milli ordu formalaşdırdı;
5. Azərbaycanı dünyaya tanıtdı;
6. Tarazlı, balanslı xarici siyasət yeritdi.

Türk dünyasının böyük oğlu Çingiz Aytmatov böyük Heydər Əliyev haqqında demişdir: "Heydər Əlirza oğlu XX əsrin ən böyük liderlərindəndir. O, müasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü qurucularından biridir".

Heydər Əliyev ölkəmizdə siyasi müstəqilliyi iqtisadi müstəqilliklə, milli-mənəvi müstəqilliklə əlaqələndirdi. Məhz bu liderlik xüsusiyyətinə diqqət yetirən Nursultan Nazarbayev Heydər Əliyev haqqında deyir: "Heydər Əliyevin coşqun fəaliyyəti sayəsində Azərbaycan siyasi və iqtisadi dəyişikliklər, bazar münasibətlərinə keçid yolu ilə inamla irəliləyir, öz müstəqilliyini və suverenliyini möhkəmləndirir".

Heydər Əliyevi Ümummilli Lider səviyyəsinə yüksəldən onun müvazinətli inkişaf konsepsiyasını irəli sürməsi insanların şüurunda dəyişikliklər etməsi oldu.

Heydər Əliyevin böyük siyasətdə ən böyük uğurlarından biri də, heç şübhəsiz, regionun coğrafi-siyasi xəritəsində iqtisadi maraqların intensivliyini artırmaq və böyük dövlətləri kor-koranə ermənipərəstlikdən uzaqlaşdıraraq, iqtisadi maraqlar müstəvisinə dəvət etməkdən ibarətdir. Əsrin kontraktı da, Böyük İpək Yolunun bərpası strategiyası da, Bakı-Ceyhan layihəsi də, bir-birini əvəz edən neçə-neçə beynəlxalq neft-qaz kontraktları da, "Qafqazda təhlükəsizlik paktı" ideyası da, məhz bu böyük mərama xidmət edir və yaxşı düşünülmüş vahid strateji planın ayrı-ayrı məqamlarıdır.

S.Xəlilov göstərir ki, Azərbaycanın öz maraqlarına uyğun işlənib- hazırlanmış müstəqil siyasi kursu vardır. İstər böyük və ya kiçik, uzaq və ya qonşu dövlətlərlə, istərsə də iqtisadi və mədəni-mənəvi sahələrdəki tərəf-müqabillərlə münasibətdə Azərbaycan, ilk növbədə, öz milli maraqlarından çıxış edir. Həm də bu maraqların rəhbər tutulması elə incə siyasətlə həyata keçirilməlidir ki, böyük dövlətlərin və qonşuların maraqları ilə birbaşa ziddiyyət yaratmasın.

Heydər Əliyev siyasətə iqtisadiyyatdan, mədəniyyətdən, milli-mənəvi dəyərlərdən fərqli, tam müstəqil müstəvidə yanaşmır. Onun özünün, bir şəxsiyyət kimi, hərtərəfli hazırlıqlı olması, bütün sahələrdə yüksək intellektual səviyyəyə malik olması xarici siyasət kursunun da kompleks şəkildə həyata keçirilməsinə imkan verir.

Müstəqilliyin əsas şərtlərindən biri də möhkəm və stabil dövlət yaradılmasıdır. Heydər Əliyev hakimiyyətə gələndə, Azərbaycanda dövlət böhranı son həddə çatmış, artıq dövlətsizlik şəraiti yaranmışdı və hər şey sıfırdan başlandı. Ona görə də, çağdaş Azərbaycan dövlətinin yaradılması Heydər Əliyevin adı ilə bağlıdır.

Azərbaycanda dövlətçilik üçün, milli müstəqilliyin qorunub-saxlanılması üçün ən böyük təhlükə, heç şübhəsiz, Dağlıq Qarabağ probleminin hələ də həll olunmamış halda qalmasıdır. Lakin məhz Heydər Əliyevin hakimiyyətdə olması siyasi mübarizə müstəvisində ermənilərin və onların havadarlarının üstünlük əldə etmələrinin qarşısını alır və onlar öz məkrli niyyətlərinə heç cür nail ola bilmirlər.

Arxasında böyük dövlətlər və onların böyük hərbi bazaları dayandığı üçün güc müstəvisində özünü bəlkə daha yaxşı hiss edən Ermənistan liderləri siyasət müstəvisində özlərində tərəf-müqabilə adekvat güc tapa bilmirlər. Heydər Əliyevin siyasi gücü təkcə Onun fərdi keyfiyyətlərində və böyük siyasi təcrübəsində deyil. Ən başlıcası odur ki, O, haqq-ədaləti müdafiə edir və bunu müdafiənin bütün qayda-qanunları ilə, incəlikləri ilə həyata keçirir. Əks təqdirdə, bir çox beynəlxalq arbitrlər məmnuniyyətlə haqqı qoyub, nahaqqı müdafiə edərdilər.

Heydər Əliyevin böyük siyasətdə ən böyük uğurlarından biri də, heç şübhəsiz, regionun coğrafi-siyasi xəritəsində iqtisadi maraqların intensivliyini artırmaq və böyük dövlətləri kor-koranə ermənipərəstlikdən uzaqlaşdıraraq, iqtisadi maraqlar müstəvisinə dəvət etməkdən ibarətdir. Əsrin kontraktı da, Böyük İpək Yolunun bərpası strategiyası da, Bakı-Ceyhan layihəsi də, bir-birini əvəz edən neçə-neçə beynəlxalq neft-qaz kontraktları da, "Qafqazda təhlükəsizlik paktı" ideyası da, məhz bu böyük mərama xidmət edir və yaxşı düşünülmüş vahid strateji planın ayrı-ayrı məqamlarıdır.

Bu gün Heydər Əliyevin beynəlxalq siyasət müstəvisində atdığı bütün addımlar təkcə Dağlıq Qarabağ probleminin ədalətli həllinə deyil, həm də, ümumiyyətlə, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsinə, onun dönməzliyinin bütün dövrlər üçün təmin olunmasına yönəldilmişdir.

Əlbəttə, Dağlıq Qarabağ problemi Azərbaycan üçün olduqca önəmlidir. Bu problemin həlli istiqamətində Heydər Əliyev, həqiqətən, böyük səylər göstərmiş və beynəlxalq ictimai rəyin dəyişdirilməsi sahəsində böyük uğurlar qazanmışdır.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*



## İsti havalarda bu meyvələr faydalıdır

Meyvə və tərəvəzlərdə vitamin və minerallar olduğundan insan sağlamlığına yaxşı təsir göstərir. Yaz aylarında maye ehtiyacını qarşılamaq üçün istəyə uyğun meyvə, tərəvəz və salat istifadəsini artırmaq, qabıqlı meyvələrdən istifadə etmək, ağ çörək yerinə kəpəkli və ya tam buğda çörəyini seçim etmək olar.

İsti havalarda temperatur qalxdıqca qan daha da durulaşır və orqanizmdə maye çatışmazlığı yaranır. Bu hallar ürək-damar sistemi, qan dövranına mənfi təsir edir.

Bu baxımdan xüsusi ilə ürəyin işinə müsbət təsir edən qidalar və meyvələrdən istifadə etmək olar.

Avropa kardioloqlar asossasiyası ürəyimizin işini yaxşılaşdıracaq yay məhsulları müəyyən edib. Bu məhsullar aşağıdakı kimidir:

1. Pomidor - tərkibində olan maqnium sayəsində ürəyi möhkəmləndirir, damarların tonusunu artırır.

2. Ərik - ən yaxşı kalium mənbəyidir. Bu mikroelement maddələr mübadiləsində yaxından iştirak edir və Ürəyin ötürücülük qabilləyini yaxşılaşdırır.

Ərik şirəsi təzyiqi salır, amma gündə iki stəkandan çox içmək məsləhət deyil.

3. Kələm - C vitamini ilə zəngindir. Damarlara təmizləyici təsir göstərir, qanda olan toksinləri təmizləməyə kömək edir. Kələm şirəsi hipertoniya xəstələri üçün faydalıdır.

4. Cəfəri - bu göyərtinin cəmi bir qaşıq şirəsi arterial təzyiqi azaltmağa kömək edir.

5. Qara üzüm - ürək üçün vacib antioksidantlarla boldur. Üzümün tərkibində şəkər və kalori də çoxdur. Gündə 200 qramdan çox yeyilməsi məsləhət deyil.

## Bənövşəyi rəngli meyvələr yaşlanmaya qarşı faydalıdır

Bənövşəyi rəngli meyvələr yaşla əlaqədar xəstəliklərə qarşı təsirlidir. İngiltərədə aparılan tədqiqata görə qaragilə, böyürtkən, qarağat, ərik kimi meyvələrdən çoxlu istifadə edilməlidir. Bu meyvələr altsheymer, ürək, skleroz (MS) və digər xəstəliklərə qarşı müqaviməti artırır. Mançester Universitetinin elm adamları, həmin meyvələrdə olan "polifenol" adlı maddənin faydalı olduğunu bildiriblər.



Belə ki, "polifenol" həzm sistemi pozuqluqları nəticəsində hüceyrələrin zərər görməsinə səbəb olan dəmirin pis təsirlərinə manea törədir. Aparılan elmi işlər də qırmızı və bənövşəyi meyvələrin sağlamlıq baxımından faydalı olduğunu göstərib. Bu meyvələr qan azlığına yaxşı təsir edir.

Qaratut, quru ərik, qaragilə, quru üzüm və nar kimi meyvələrdə resveretrol, beta karotin, dəmir kimi maddələr daha sıx olur. Bu meyvələr antioksidantlar baxımından digər meyvələrdən qiymətlidir. Dəmir baxımından qan azlığı üzərində daha təsirlidir.

Aparılan bir sıra tədqiqatlarda bu tip meyvə və tərəvəzlərin ağciyər, prostat, qaraciyər və bağırsaq problemlərindən qoruduğu bildirilir.

## Azərbaycan atleti dünya çempionatının finalında yarışacaq




Böyük Britaniyanın paytaxtı Londonda keçirilən atletika üzrə dünya çempionatı Azərbaycan idmançıları üçün uğurlu olub. SİA-nın məlumatına görə, kişilərin üç təkanla uzunluğa tullanma yarışında iki idmançımız mübarizə aparıb. Onlardan biri Aleksis Kopello 16,89 metr nəticə göstərərək təsnifat mərhələsini yeddinci yerdə başa vurub. Bu, ona final mərhələsində mübarizə aparmaq imkanı verib. Növbəti mərhələyə adlayan 12 idmançı arasında ən yüksək göstəricini isə 17,20 metr nəticə ilə ABŞ idmançısı Kris Benard göstərib. On iki idmançının iştirak edəcəyi final mərhələsi avqustun 10-da baş tutacaq. Digər idmançımız Nazim Babayev isə 14-cü yer tutub və həlledici mərhələyə vəsiqə qazandıran 12-ci yerdən geri qalıb. Qeyd edək ki, komandamızın digər üzvü Hayle İbrahimov avqustun 9-da beş min metr məsafəyə qaçmaq yarışında gücünü yoxlayacaq.




## Dursun Özbək: "Arda Turanın transfer olunması ilə bağlı işlər aparılır"

Türkiyənin "Qalatasaray" klubunun prezidenti Dursun Özbək Arda Turanı transfer etmək istədiklərini açıqlayıb. SİA klubun rəsmi saytına istinadla xəbər verir ki, Dursun Özbək Arda Turanı "Barselona"dan transfer etmək üçün işlərin aparıldığını bildirib. O deyib: "Arda Turan "Qalatasaray"ın çox yaxşı yetirməsidir. Əlbəttə ki, Ardanın xidmət göstərəcəyi yer "Qalatasaray"dır. Onun "Qalatasaray"a gəlməsini və karyerasını burada bitirməsini istəyirik. Bununla bağlı da bir sıra addımlar atmışıq".

Klubun futbol direktoru Cenk Ergün "Qalatasaray" rəsmilərinin bu həftə İspaniyaya səfər edəcəyini bildirib. O deyib ki, "Barselona" ilə danışıqlar baş tutsa, futbolçu türk klubuna bir mövsüm üçün icarəyə veriləcək. Daha sonra transferin tamamilə həyata keçəcəyi planlaşdırılıb. Qeyd edilib ki, "Barselona"nın bəzi oyunçularını satmaq istəməsi türk klubunu daha da həvəsləndirib. Arda geri qayıtsa, "Qalatasaray"ın kapitanlıq sarğısı da ona veriləcək, habelə illik 4,5 milyon avro almaqla klubun ən çox qazanan futbolçusu olacaq.

## "Zenit" "Atletiko"nun futbolçusunu transfer edib



"Zenit" "Atletiko"nun futbolçusu Matias Kranevitteri transfer edib. SİA-nın məlumatına görə, 24 yaşlı argentinalı yarımmüdafiəçi ilə 4 illik müqavilə imzalanıb. Bu transfer üçün "Zenit" 8 milyon avro təzminat ödəyib. Qeyd edək ki, M.Kranevitter ötən mövsüm icarə əsasında çıxış etdiyi "Sevilya"da 21 matçda oynayıb.




## Arda Turan Türkiyə milli komandası ilə bağlı yeni qərarını açıqlayıb

Türkiyə milli komandasında karyerasına son qoyan futbolçu Arda Turan yenidən ay-ulduzlu formanı geyinəcək. AZƏRTAC xəbər verir ki, "Barselona"da oynayan 30 yaşlı yarımmüdafiəçi yığmanın yeni baş məşqçisi Mirça Luçesku ilə görüşdən sonra bu qərarı verib. Rumınıyalı baş məşqçi dünən İspaniyada baş tutan "Barselona"-"Şapokeonse" görüşündən əvvəl A.Turanla bir araya gələrək onu milliyə dönməyə razı salıb. Xatırladaq ki, A.Turan iyunun 6-da keçirdiyi mətbuat konfransında yığmada karyerasını başa vurduğunu açıqlamışdı.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli
Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500**